## “NEWS.RU” AZƏRBAYCAN PREZİDENTİ BARƏDƏ YAZIB

Rusiyanın “News.ru” internet nəşri Azərbaycan Prezidenti İlham Əliyevə həsr olunmuş məqalə dərc edib. https://news.ru/v-mire/aliev-prezident-azerbajdzhan/ AZƏRTAC xəbər verir ki, “News.ru” postsovet məkanının dövlət başçıları haqqında silsilə məqalələr dərc edir. Portal yazır ki, ölkə rəhbərləri tərəfindən qəbul edilən qərarlar adətən təkcə obyektiv vəziyyətdən deyil, həm də dövlət başçısının şəxsiyyətindən - onun tərbiyəsindən, dünya görüşündən, dəyərlərindən asılı olur. Bundan əvvəlki materiallar Ukrayna, Belarus, Qazaxıstan, Moldova...




Bax səh. 2

## NƏSİMİ - ŞEİR, İNCƏSƏNƏT VƏ MƏNƏVİYYAT FESTİVALI BAŞA ÇATIB

Sentyabrın 30-da Bakı Media Mərkəzində Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının bağlanış və Mədəniyyət Nazirliyinin “Söz” ədəbi layihəsi çərçivəsində Nəsiminin xatirəsinə həsr etdiyi ədəbi müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimləri keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva mərasimlərdə iştirak ediblər. Festivalın bağlanışı mərasimində “Mərhaba!” ədəbi-musiqili tamaşa təqdim olunub....



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 02 oktyabr 2018-ci il, çərşənbə axşamı / № 185 (5312). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan MDB ilə əməkdaşlığa böyük önəm verir




*Respublikamızın MDB ilə əlaqələri, o cümlədən də quruma daxil olan ayrı-ayrı dövlətlərlə ikitərəfli münasibətləri qarşılıqlı hörmət prinsipinə əsaslanır və milli maraqlara xidmət edir*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Azərbaycan Respublikası prokurorluq orqanlarının əməkdaşlarını və veteranlarını təbrik edib. Təbrikdə deyilir: “Hörmətli prokurorluq əməkdaşları və veteranlar!

Sizi Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1 oktyabr 1918-ci ildə yaradılmış prokurorluq orqanları bir əsrlik şərəfli inkişaf yolu keçmişdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev milli prokurorluğun demokratik və hüquqi cəmiyyətdə rolunu nəzərə alaraq 17 iyul 1998-ci ildə imzaladığı Sərəncamla oktyabr ayının 1-ni prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis etmişdir.

Prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir.

Prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulu prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan vermişdir.

Bu gün prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına prokuror nəzarətini və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirilməklə, istintaq və dövlət ittihamının müdafiəsi sahəsindəki fəaliyyəti ilə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Əminəm ki, yüz illik tarixi olan Azərbaycan Prokurorluğunun əməkdaşları bundan sonra da qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edəcək, cinayətkarlığa qarşı mübarizədə əzmkarlıq nümayiş etdirəcək və onların üzərinə düşən vəzifələri layaqətlə yerinə yetirəcəklər.

Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətimizin tərəqqisi naminə fəaliyyətinizdə nailiyyətlər arzulayıram”.

⋄ ❖ ⋄

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinə təbrik məktubu göndərib.

⋄ ❖ ⋄

Prezident İlham Əliyev Kürdəmir rayonunun Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi (184 km)-Pirili-Muradxan-Sor Sor avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.



## MİLLİ MƏCLİSİN PAYIZ SESSİYASI ÖZ İŞİNƏ BAŞLAYIB

Oktyabrın 1-də Milli Məclisin payız sessiyası öz işinə başlayıb. Dövlət himni səsləndirildikdən sonra çıxış edən spiker Oqtay Əsədov payız sessiyasının başlanması münasibəti ilə millət vəkillərini təbrik edib. O.Əsədov qeyd edib ki, Azərbaycan parlamentinin 100 illiyi münasibəti ilə sentyabrın 21-də Milli Məclisin təntənəli iclası keçirilib...

Bax səh. 4

## TƏHSİL SİSTEMİMİZ BEYNƏLXALQ STANDARTLARA UYĞUN OLARAQ İRƏLİLƏYİR

...İlk növbədə, yeni tədris ilinin başlanması münasibətilə ölkəmizin təhsil ictimaiyyətini, müəllimləri, şagirdləri və tələbələri, valideynləri təbrik edirəm. Ötən dərs ilində “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda ümumi təhsil sisteminin müasir dövrün tələb və çağırışlarına uyğun inkişafı ilə bağlı müəyyənləşdirilmiş hədəflərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi daim diqqətdə saxlanılıb, onların reallaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin dəstəyi və qayğısının nəticəsi olaraq yeni məktəblərin inşası, o cümlədən uçar yaşayış məntəqələrindəki yararsız vəziyyətə düşmüş azkomplektli məktəblər üçün modul tipli binaların quraşdırılması, eləcə də ümumtəhsil məktəblərinin əsaslı təmiri və maddi-tədris bazasının möhkəmləndirilməsi sahəsində aparılan işlərin ardıcıl davam etdirilməsi bütövlükdə ümumi təhsilin infrastrukturunun yenidənqurulmasına, təlim-tərbiyə şəraitinin...

Bax səh. 6



## DAHİ BƏSTƏKAR QARA QARAYEVİN EV MUZEYİNİN AÇILIŞ MƏRASİMİ OLUB

Oktyabrın 1-də dahi bəstəkar Qara Qarayevin paytaxtın Nizami küçəsində yerləşən ev muzeyinin açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər...

Bax səh. 4

## Ailə kiçik dövlət, böyük sərvətdir

Azərbaycan xalqının əsrlərdən gələn gözəl, dəyərli adət-ənənələri var. Yüz illərdir ki, bu ənənələr yaşayaraq bu günümüzə gəlib çatıb. Xalqımızın gözəl ənənələrindən biri də xeyirxahlıq etmək, imkansızlara, kimsəsizlərə yardım etmək, onlara arxa, dayaq olmaqdır. Sevindirici haldır ki, bu ənənə artıq müstəqil Azərbaycanda dövlət siyasətinə çevrilib. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan humanist siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin qurucusu olduğu və Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası (YAP) da bu ənənələrə sadiq qalaraq xeyriyyə tədbirləri həyata keçirir. Partiyanın təşkilatçılığı ilə bu il mayın 9-da...

Bax səh. 7

### Bilik Fondunun Himayəçilik Şurasının yeni tərkibdə ilk iclası keçirilib

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının yeni tərkibdə...



Bax səh. 5

### Prokurorluq işçilərinin peşə bayramı günü və Milli Prokurorluğun yaradılmasının 100 illik yubileyi geniş qeyd olunub

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən həmin ildən etibarən hər il...



Bax səh. 5

### Ədliyyə Nazirliyində kollegiya iclası keçirilib

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Ulu öndər Heydər Əliyevin siyasi kursunun...



Bax səh. 2

### *Eldar İbrahimov:* Azərbaycan diplomatiyası növbəti uğurunu qazandı

“Azərbaycan-Rusiya əlaqələri yüksələn xətlə inkişaf edir. Rusiya Prezidenti Vladimir Putinin sentyabrın 27-də Azərbaycana səfəri yüksək səviyyədə baş tutdu. Bu, Vladimir Putinin...



Bax səh. 5

# Azərbaycan MDB ilə əməkdaşlığa böyük önəm verir

*Respublikamızın MDB ilə əlaqələri, o cümlədən də quruma daxil olan ayrı-ayrı dövlətlərlə ikitərəfli münasibətləri qarşılıqlı hörmət prinsipinə əsaslanır və milli maraqlara xidmət edir*



Xəbər verildiyi kimi, bu günlərdə Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşü olub, həmçinin MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki tədbirdə iştirak edib.

Tədbirlərdə müstəqil dövlətlərin MDB çərçivəsində əməkdaşlığının müxtəlif aspektlərinə dair bir sıra məsələlər geniş müzakirə edilib. Xüsusi olaraq vurğulanıb ki, ötən dövrdə ənənələrə uyğun olaraq ölkələr arasında münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi əhəmiyyət verilib. Şuranın növbəti iclası 2019-cu ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcək.

MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclasında tədbir iştirakçıları kosmik fəzanın sülh məqsədilə tədqiqi və istifadəsi sahəsində əməkdaşlığa dair hazırlanmış Konvensiyanın müddəaları ilə tanış olublar. Bundan başqa, nümayəndə heyətlərinə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin bayram edilməsi ilə bağlı hazırlanmış sənəd barədə məlumat verilib. Hər iki sənəd yekdilliklə qəbul olunub.

## MDB DÖVLƏTLƏRİNİ ORTAQ SİYASİ KEÇMİŞ VƏ MÜASİR ÇAĞIRIŞLAR BİRLƏŞDİRİR

Keçmiş ittifaq məkanında yaradılan Müstəqil Dövlətlər Birliyinə üzv ölkələri ortaq tarix və müasir çağırışlar birləşdirir. MDB Belarus SSR, Rusiya SFSR və Ukrayna SSR rəhbərləri tərəfindən 1991-ci il 8 dekabr tarixində "Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında Saziş"in imzalanması ilə təsis edilib. Preambula və 14 maddədən ibarət sənəd SSRİ-nin beynəlxalq hüquq və geosiyasi reallığın subyekti kimi ləğv olunmasını bəyan edirdi. Lakin millətlərin tarixi birliyini, onların arasında əlaqələri, ikitərəfli sazişləri nəzərə alaraq tərəflər Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında razılığa gəlmişlər. 1991-ci il 21 dekabr tarixində Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukraynanın rəhbərləri Alma-Ata Bəyannaməsini imzalayıblar. Sənəddə SSRİ-nin ləğv olunaraq, MDB-nin yaradılması vurğulanır. Sənəd həmçinin MDB-nin məqsəd və prinsiplərini özündə əks etdirirdi. Qurumun formalaşması 1993-cü ilin 22 yanvar tarixində Minsk şəhərində təşkilatın başlıca sənədi olan Müstəqil Dövlətlər Birliyinin Əsasnaməsinin qəbul edilməsi ilə başa çatıb.

Ötən dövrdə MDB özünü müstəqil dövlətlərin səmərəli əməkdaşlıq platforması kimi təsdiqləyib. Quruma daxil olan dövlətlər bir sıra istiqamətlər üzrə öz fəaliyyətlərini uzlaşdırıblar ki, bu da regional təhlükəsizliyin təmin olunmasına və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın dərinləşməsinə öz müsbət təsirini göstərib. O cümlədən terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri MDB-yə daxil olan dövlətlərin qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərini təşkil edib. Ötən dövrdə birliyin hüquq-müqavilə bazası möhkəmlənib. İnnovasiyalar, nüvə energetikası, nəqliyyat təhlükəsizliyi sahələrində sazişlər qüvvəyə minib. Saxta məhsulların yayılmasına qarşı, əqli mülkiyyətin qorunması ilə bağlı sənədlər qəbul olunub. Ötən ilin mayında Tacikistanda MDB xüsusi xidmət orqanlarının "Düşənbə - antiterror 2017" mövzusunda irimiqyaslı təlimləri keçirilib. Birlik ölkələri arasında korrupsiyaya, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə üzrə əməkdaşlığın konsepsiyalarının işlənib hazırlanması və bəyənilməsi böyük aktuallıq daşıyır. Eləcə də yuxarıda bəhs olunan tədbirlərdə vurğulandığı kimi, MDB çərçivəsində qəbul edilən sənədlərə müvafiq olaraq iqtisadi sahədə əməkdaşlıq yaxşı nəticələr verib. Təsadüfi deyil ki, qurum daxilində, həmçinin MDB-dən üçüncü ölkələrlə mal dövriyyəsi getdikcə artır.

MDB dövlətləri arasında əməkdaşlığın mühüm bir istiqamətini isə humanitar-mədəni sahə təşkil edir. Keçmiş ittifaq məkanında bu gün MDB-də birləşən dövlətlərin mədəni irsi, həmçinin şair və yazıçılar, bəstəkarlar və rəssamlar, müğənnilər geniş populyarlığa malikdirlər. Bütün bunlar isə xalqları bir-birlərinə daha yaxın edir və onları zənginləşdirir. Ötən dövrdə MDB çərçivəsində humanitar sahədə əməkdaşlığın möhkəmlənməsini hədəfləyən, gənclər siyasətinə aid, eləcə də təhsil, səhiyyə, mədəniyyət, idman və turizm sahələrində uğurlu layihələrin reallaşdırılması olduqca təqdirəlayiq haldır. Deyilənlərlə yanaşı, MDB dövlətləri bütün dünyada beynəlxalq hüquq norma və prinsipləri əsasında ədalətli qlobal nizamın bərqərar olmasını dəstəkləyirlər.

## AZƏRBAYCANIN MDB İLƏ ƏMƏKDAŞLIĞI MÜXTƏLİF İSTİQAMƏTLƏRİ ƏHATƏ EDİR

Azərbaycanın keçmiş ittifaqa daxil olan dövlətlərin yaratdığı Müstəqil Dövlətlər Birliyində uğurlu təmsilçiliyi xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi sayəsində baş tutub. Məlum olduğu kimi, 1992-ci ilin mayında respublikamızda zorla hakimiyyəti ələ keçirən AXC-"Müsavat" iqtidarı hər vəchlə ölkəmizin MDB-yə daxil olmasını əngəlləməyə çalışırdı. AXC-"Müsavat" iqtidarının təmsilçiləri bunu müxtəlif cəfəng fikirlərlə əsaslandırırdılar. Belə iddia edirdilər ki, guya MDB-yə daxil olmaq Azərbaycanın müstəqilliyinə hansısa bir formada xələl gətirəcək. Ötən illərdə respublikamızın Müstəqil Dövlətlər Birliyi platformasında uğurlu təmsilçiliyi AXC-"Müsavat" iqtidarının baxışlarının utopiyadan ibarət olduğunu bir daha təsdiqlədi. Azərbaycanın MDB-yə daxil olması parlamentin prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsi barədə qərarından sonra baş tutdu. Belə ki, respublikamızın MDB-yə qoşulması haqqında qərar 1993-cü ilin sentyabrında ratifikasiya edildi.

Müstəqil Azərbaycan işğalçı Ermənistan istisna olmaqla bütün MDB ölkələri ilə azad ticarət rejimi yaradıb, eləcə də respublikamızla digər MDB dövlətləri arasında sərbəst sərmayə üçün möhkəm hüquqi baza formalaşıb. Azərbaycan MDB-nin 2020-ci ilə qədər dövr üçün İqtisadi inkişaf strategiyasının həyata keçirilməsində fəal iştirak edir, Tədbirlər Planına uyğun olaraq hər ilin yekunu barədə müvafiq hesabat MDB-nin İcraiyyə Komitəsinə təqdim edilir. Həmçinin Azərbaycan barədə müvafiq məlumatlar mütəmadi olaraq "MDB iştirakçı dövlətlərinin işgüzar mühiti, investorlara verilən imtiyazlar, azad iqtisadi zonalar, sənaye və elmi-texniki parklar haqqında İcmal"a daxil edilir.

Azərbaycan MDB ilə iqtisadi sahədə uğurla əməkdaşlıq edir. Cari ilin yanvar-avqust aylarında ölkəmizin MDB məkanı ilə ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faizdən çox artıb. Mütəxəssislərin qənaəti isə belədir ki, Azərbaycanla MDB arasında iqtisadi sahədə əməkdaşlıq imkanları daha genişdir. Eyni zamanda, son illərdə Azərbaycanın moderatorluğu ilə reallaşdırılan enerji və nəqliyyat layihələri bütövlükdə MDB məkanı üçün geniş perspektivlər vəd edir. Təsadüfi deyil ki, MDB-yə daxil olan ayrı-ayrı dövlətlər bəhs olunan layihələrin yaratdığı imkanlardan bəhrələnməklə bağlı niyyətlərini bildiriblər.

MDB Azərbaycanın xarici siyasətinin ən mühüm məsələsi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılması baxımından da əlverişli platformadır. Məlumdur ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan münaqişənin ədalətli həllinə nail olmaq üçün beynəlxalq təşkilatların, o cümlədən də MDB-nin tribunasından geniş istifadə edir. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək səviyyəli tədbirlərdə nümayiş etdirdiyi qətiyyətli mövqenin nəticəsidir ki, bu gün MDB-yə daxil olan ayrı-ayrı dövlətlər respublikamızın ərazi bütövlüyünə dəstək nümayiş etdirirlər.

## RESPUBLİKAMIZIN ERMƏNİSTAN İSTİSNA OLMAQLA, MDB-YƏ ÜZV DÖVLƏTLƏRLƏ YÜKSƏK SƏVİYYƏLİ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİ FORMALAŞIB

Azərbaycanın həyata keçirdiyi siyasətin səciyyəvi cəhətlərindən biri də ondan ibarətdir ki, respublikamız MDB-yə daxil olan ayrı-ayrı dövlətlərlə ikitərəfli əməkdaşlığın dərinləşməsinə də böyük önəm verir. Belə rasional siyasətin nəticəsidir ki, respublikamızın MDB-də təmsil olunan ayrı-ayrı dövlətlərlə yüksək səviyyəli münasibətləri formalaşıb. Məsələn, Azərbaycanla Rusiya arsında mövcud olan yüksək səviyyəli siyasi münasibətlərə adekvat olaraq iki ölkənin iqtisadi əlaqələri də sürətlə genişlənir. 2017-ci ilin yekununa görə, Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi təxminən 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Hər iki ölkə qarşılıqlı investisiya fəaliyyətini genişləndirir. Azərbaycan Rusiyaya 1 milyard dollardan artıq, qonşu ölkə isə respublikamıza təxminən 4 milyard dollar həcmində investisiya yönəldib. Şübhə yoxdur ki, qarşıdakı illərdə bu rəqəmlər daha da artacaq.

Azərbaycan-Qazaxıstan əlaqələrinin getdikcə genişlənməsi respublikamızın MDB-yə üzv dövlətlərlə yüksək səviyyəli ikitərəfli münasibətlər qurmasına yaxşı nümunədir. Azərbaycanın ixrac-idxal əməliyyatlarında vacib yer tutan ölkə kimi son illər qonşu Qazaxıstan azərbaycanlı sahibkarlar üçün xüsusilə cəlbedici olub. Təkcə bu ilin birinci yarısında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 56 faiz artıb. Belə ki, ötən il ərzində ümumi ticarət dövriyyəsinin həcmi 142 milyon dollar olmuşdusa, bu ilin altı ayında bu göstərici artıq 117 milyon dollara çatıb.

Bütövlükdə, Azərbaycanın Ermənistan istisna olmaqla bütün MDB dövlətləri ilə çox yüksək səviyyəli ikitərəfli münasibətləri formalaşıb. İntensiv xarakter daşıyan bu münasibətlər ölkələrin milli maraqlarına xidmət edir və tarixi dostluq ənənələrinə, qarşılıqlı hörmət prinsipinə əsaslanır.

**Mübariz ABDULLAYEV**

# "News.ru" Azərbaycan Prezidenti barədə yazıb




Rusiyanın "News.ru" internet nəşri Azərbaycan Prezidenti İlham Əliyevə həsr olunmuş məqalə dərc edib. https://news.ru/v-mire/aliev-prezident-azerbajdzhan/

AZƏRTAC xəbər verir ki, "News.ru" postsovet məkanının dövlət başçıları haqqında silsilə məqalələr dərc edir. Portal yazır ki, ölkə rəhbərləri tərəfindən qəbul edilən qərarlar adətən təkcə obyektiv vəziyyətdən deyil, həm də dövlət başçısının şəxsiyyətindən - onun tərbiyəsindən, dünya görüşündən, dəyərlərindən asılı olur. Bundan əvvəlki materiallar Ukrayna, Belarus, Qazaxıstan, Moldova, Özbəkistan, Türkmənistan və Tacikistanın dövlət başçılarına həsr edilib.

Məqalədə qeyd olunur ki, Azərbaycanın paytaxtı Bakı şəhərində, çox hörmətli ailədə doğulan İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu (MDBMİ) bitirib. 2003-cü ildə İlham Əliyev Azərbaycan Prezidenti seçilib. Daha sonra ölkə vətəndaşları 3 dəfə ardıcıl olaraq Ona respublikaya rəhbərliyi etibar ediblər.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin, həmçinin birinci xanım Mehriban Əliyevanın həyatından digər maraqlı faktlar da yer alıb.

# Birinci vitse-prezident Mehriban Əliyevanın İtaliyaya rəsmi səfəri bu ölkənin KİV-lərində geniş işıqlandırılıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın İtaliyaya rəsmi səfəri bu ölkənin çoxsaylı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, İtaliyanın "Il Messaggero", "Askanews", "9colonne", "Agenzia Nova", "Radioradicale", "Notizie Yahoo", "Comunicazione Inform", "Agvivelino", "Prealpina", "Rete Sole" və "Rete7" kimi kütləvi informasiya vasitələri səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyevanın İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və Senatın sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə keçirdiyi görüşlərə yer veriblər.




Yazılarda İtaliya Senatının Custiniani sarayında təşkil olunmuş "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransda Birinci vitse-prezident Mehriban Əliyevanın və Senatın sədri Maria Elisabetta Alberti Kasellatinin çıxışlarındakı fikirlərə istinad olunub, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Azərbaycanın müstəqillik illərində keçdiyi yol, əldə etdiyi nailiyyətlər və Azərbaycan-İtaliya strateji tərəfdaşlığı, Heydər Əliyev Fondunun iki ölkə arasında humanitar əlaqələrin inkişafındakı rolundan bəhs edilib.

Həmçinin İtaliya KİV-ləri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Romanın Milli Müasir və Çağdaş İncəsənət Qalereyasında təşkil olunmuş rəsmi ziyafət barədə məlumat verib. Ziyafətdə Birinci vitse-prezident Mehriban Əliyevanın və İtaliya hökuməti adından çıxış etmiş iqtisadiyyat və maliyyə naziri Covanni Trianın fikirlərinə yer verilib. Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinə dair sərgi və sənədli filmin nümayiş olunması da qeyd edilib.

# Ədliyyə Nazirliyində kollegiya iclası keçirilib



Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi, respublikamızın davamlı sosial-iqtisadi tərəqqisi və yüksək nailiyyətləri qeyd olunub. Həmçinin dövlətimizin başçısının penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2017-ci il fevralın 10-da imzaladığı mühüm, proqram xarakterli Sərəncamının bu istiqamətdə əməli tədbirlərin görülməsi üçün "yol xəritəsi" olduğu vurğulanıb, görülən işlərdən bəhs olunub.

Bildirilib ki, məhkumların islah olunmasında, cəzaların icrası qaydalarına və rejimə riayət edilməsində müstəsna əhəmiyyət kəsb edən məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsi və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi institutunun tətbiqi ilə bağlı görülən işlər təhlil olunaraq ümumiləşdirilib və nazirliyin kollegiya iclasında müzakirə edilib. Bu sahədə fəaliyyətin təkmilləşdirilməsi və dövlət başçısının Sərəncamından irəli gələn tələblərə uyğun qurulması məqsədilə yeni Qaydalar hazırlanıb.

Kollegiyada müzakirə olunaraq qəbul edilmiş Qaydalar bu humanist institutun tətbiqində kollegiallığın, şəffaflığın, obyektivliyin və ictimai iştirakçılığın təmin edilməsinə, məhkumların hüquq və qanuni mənafelərinin daha etibarlı qorunmasına yönəlib. Pilot qaydada bu sahədə fəaliyyət göstərəcək Komissiya Ədliyyə Nazirliyinin, o cümlədən penitensiar və tibb xidmətlərinin, habelə ictimaiyyət nümayəndələrindən ibarət tərkibdə formalaşdırılacaq, onun işinə probasiya xidmətinin əməkdaşları və psixoloqlar da cəlb olunacaq.

İclasda, həmçinin penitensiar müəssisələrin, həbs edilmiş şəxslərin və məhkumların müşayiətinin təhlükəsizliyinin gücləndirilməsi, fövqəladə hallarda işin təşkili məsələlərini tənzimləyən, habelə icra sahəsində fəaliyyətin səmərəliliyinin artırılmasına yönələn normativ akt layihələrinə baxılaraq qəbul olunub.

Eyni zamanda, kollegiyada ədliyyə orqanları tərəfindən əhaliyə göstərilən elektron xidmətlərə dair təqdimat keçirilib. Təqdimatda ədliyyə fəaliyyətində şəffaflığın artırılması, açıq hökumət prinsiplərinin təşviqi, vətəndaş məmnunluğunun yüksəldilməsi, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin və ədliyyə qurumlarına əlçatanlığın artırılması üzrə görülən işlər qeyd olunub. Nazirlik tərəfindən 31 elektron xidmətin göstərildiyi və bu xidmətlərdən istifadələrin sayının 11 milyonu ötdüyü bildirilib.

Həmçinin nazirliyin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə elektron xidmətlərin genişləndirilməsi imkanları təhlil olunaraq onların çeşidləri nümayiş etdirilib, dövlətimizin başçısının elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tapşırıqlarına uyğun olaraq ədliyyə fəaliyyətinin elektronlaşdırılmasına, mövcud xidmətlərin təkmilləşdirilməsinə dair əlavə tədbirlər müəyyən edilib.

Bununla yanaşı, beynəlxalq əlaqələrin dərinləşdirilməsi üzrə tədbirlərə baxılıb. Qeyd olunub ki, cari ildə Türkiyə, Əlcəzair, Serbiya, Latviyanın ədliyyə nazirləri tərəfindən ölkəmizə səfərlər edilib, ədliyyə sahəsində mühüm sənədlər imzalanıb. Kollegiyada həmin beynəlxalq sənədlərin icrası üzrə zəruri tədbirlərin görülməsi, habelə beynəlxalq görüşlər zamanı ölkəmizdə gedən inkişaf proseslərinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə geniş çatdırılması, eləcə də ədliyyə və məhkəmə sistemində aparılan islahatların və yeniliklərin təbliği tapşırılıb.

Kollegiyada dövlətimizin başçısının "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi 2018-ci ilin demokratik respublikanın yaranmasının 100 illiyi və digər tarixi hadisələr ilə zəngin olmaqla, həmçinin Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olduğu vurğulanıb. Bu münasibətlə nazirlik üzrə müəyyən olunmuş tədbirlər müzakirə edilib, nazirliyin tarixinin hazırlanan sənəd və vəsaitlərdə dolğun və müfəssəl əks olunması ilə bağlı tapşırıqlar verilib.

Vətəndaş cəmiyyətinin inkişafına dövlət dəstəyinin təzahürü olaraq iclasda 17 qeyri-kommersiya hüquqi şəxs dövlət qeydiyyatına alınıb.

YENİ AZƏRBAYCAN



# Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində Qala qəsəbəsində silsilə tədbirlər təşkil olunub

*Paraqvayın məşhur "Recycling" orkestri Qalada geniş konsert proqramı ilə çıxış edib*



Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" üçüncü Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində yaradılan əsərlərin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva iştirak ediblər.

Builki simpoziumda 17 ölkədən 20 heykəltəraş iştirak edib. Azərbaycan, Belçika, İtaliya, Türkiyə, Hindistan, Ukrayna, İspaniya, Misir, Meksika, Rumıniya, İran, Norveç, Yunanıstan, Sloveniya, Argentina, Suriya və Gürcüstandan olan sənətkarlar əsərlərini Nəsimi yaradıcılığına həsr ediblər. Heykəltəraşlar əsərlərini aqlay daşından Qala qəsəbəsində açıq səma altında yaradıblar.



Sonra qonaqlar "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda VII Beynəlxalq "Tullantıdan sənətə" sərgisinə baxıblar.

Heydər Əliyev Fondunun təşəbbüsü, "Təmiz Şəhər" ASC-nin təşkilatçılığı, IDEA İctimai Birliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Q Gallery" incəsənət qalereyasının dəstəyi ilə təşkil edilən sərgidə 12 ölkədən - Azərbaycan, Rusiya, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Rumıniya, Bəhreyn, Oman, İran, Latviya, Bosniya və Herseqovinadan olan 27 incəsənət nümayəndəsinin əsərləri nümayiş edilib. Məişət tullantılarından istifadə olunaraq hazırlanan sənət nümunələri maraqla qarşılanıb.

Sərginin əsas məqsədi əhaliyə ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, onları lazımsız saydıqları əşyaları düşünmədən zibil qutularına atmaq vərdişlərindən çəkindirməkdir.



Sərgi çərçivəsində Paraqvayın məşhur "Recycling" orkestri konsert proqramı təqdim edib. Uşaq və yeniyetmələrdən ibarət bu orkestrin unikal cəhəti onun tullantılardan təkrar emal olunmuş musiqi alətlərindən istifadə etməsidir. Orkestrin rəngarəng çıxışı iştirakçılarının böyük marağına səbəb olub.

Sonra Bakının Qala qəsəbəsində istifadəsiz qalan sənaye anbarında "Açılan divar" ictimai incəsənət layihəsi təqdim olunub.

Layihə səkkiz yerli və xarici "urban art" (şəhər mühitində incəsənət) rəssamın iştirakı ilə reallaşıb.

Sərginin ekspozisiyasında Azərbaycan, Braziliya, Belçika, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların binanın divarları üzərində yaratdığı sənət əsərləri nümayiş edilib.

Qeyd edək ki, Bakının Qala qəsəbəsində təşkil olunan bu silsilə tədbirlər Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində reallaşıb.

# Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı: "Bahariyyə" musiqi layihəsi təqdim olunub



Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində sentyabrın 29-da Daş Salnamə Muzeyində "Bahariyyə" adlı musiqi layihəsinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva iştirak ediblər.

Nəsimi dühasından ilhamlanaraq hazırlanmış "Bahariyyə" adlı konsertdə muğam və elektron musiqiləri təqdim olunub. Tanınmış xanəndə, Əməkdar artist Teyyub Aslanovu tarda Əliağa Sədiyev, kamançada Elnur Mikayılov, zurna və balabanda Şirzad Fətəliyev, nağarada Kamran Kərimov müşayiət ediblər. Fərhad Fərzəliyevin təqdimatında elektron musiqi konsertə toplaşanlar tərəfindən maraqla qarşılanıb. Nəsiminin poetik dünyası muğam sənətinin və elektron musiqinin dili ilə sənətsevərlərə mükəmməl şəkildə çatdırılıb. Bəşəri sevgi və mənəvi oyanış mövzularında dinlənilən nəğmələr gecəyə xüsusi rəng qatıb.



Tədbirdən əvvəl, həmçinin dünya şöhrətli amerikalı iqtisadçı Ceremi Rifkinin "Empatik sivilizasiya və paylaşım iqtisadiyyatı" adlı videomühazirəsi dinlənilib. Sonra iştirakçıların sual-cavab sessiyası təşkil olunub.

Qeyd edək ki, Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr olunan, şeir və sənətin yaşadılması məqsədi daşıyan festival Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşıb.

Sentyabrın 30-dək davam edən festival Nəsiminin fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm..." şüarları ilə təşkil olunub.



# Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı başa çatıb

*Nəsiminin xatirəsinə həsr edilən ədəbi müsabiqənin qalibləri mükafatlandırılıb*

Sentyabrın 30-da Bakı Media Mərkəzində Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının bağlanış və Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində Nəsiminin xatirəsinə həsr etdiyi ədəbi müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimləri keçirilib.





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva mərasimlərdə iştirak ediblər.



Festivalın bağlanışı mərasimində "Mərhaba!" ədəbi-musiqili tamaşa təqdim olunub. Ecazkar musiqi, tamaşanın plastik həlli və əlbəttə ki, Nəsiminin qiymətli kəlamlarının aktyorların ifasında məharətlə səsləndirilməsi şairin tükənməz poetik dünyasını bir daha təcəssüm etdirib. Mütəfəkkir şairin qəzəllərindən səsləndirilən "Mərhaba, xoş gəldin, ey ruhi-rəvanım, mərhaba", "Mənəm ol tilsimi-pünhan ki, bu gün cahanə gəldim" və digər misralar hər kəsi bir daha Nəsimi şeiriyyətinin təsirinə salıb, insan, həyat, həqiqət axtarışı haqqında düşüncələrə dalmağa sövq edib.

Sonra Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində İmadəddin Nəsiminin xatirəsinə həsr etdiyi ədəbi müsabiqənin qalibləri - Tahirə Məmmədova, Mehman Rəsulov, Rüstəm Tofiq, habelə ən gənc iştirakçı Aysel Babayeva və Mehriban Səttarova mükafatlandırılıblar.

Mükafatları Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təqdim edib.

Qeyd edək ki, müsabiqə gənc, istedadlı şairlərin ortaya çıxarılması, cəmiyyətə tanıdılması məqsədilə həyata keçirilib. Ədəbi yarışa 90-dək gənc şair Nəsimi dühasından bəhrələnərək yazdıqları əsərləri təqdim ediblər. Münsiflər heyətinin qərarı ilə onlardan 17-si final mərhələsinə qalıb.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının keçirildiyi dörd gün ərzində Bakıda və Şamaxıda ölməz şairin ruhunu və yaradıcılığını yaşadan, incəsənət və mənəviyyatı tərənnüm edən müxtəlif tədbirlər-sərgilər, mühazirələr, ədəbi-bədii gecələr, musiqili kompozisiyalar və s. təşkil olunub.



# Milli Məclisin payız sessiyası öz işinə başlayıb



***Oqtay Əsədov:*** *Əminəm ki, Milli Məclisin payız sessiyası yüksək səviyyədə keçəcək*

*Millət vəkilləri sessiyanın qanunvericilik işləri planını təsdiq ediblər*



Oktyabrın 1-də Milli Məclisin payız sessiyası öz işinə başlayıb. Dövlət himni səsləndirildikdən sonra çıxış edən spiker Oqtay Əsədov payız sessiyasının başlanması münasibəti ilə millət vəkillərini təbrik edib. O.Əsədov qeyd edib ki, Azərbaycan parlamentinin 100 illiyi münasibəti ilə sentyabrın 21-də Milli Məclisin təntənəli iclası keçirilib: **"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iclasda iştirak edib və geniş nitq söyləyib. Möhtərəm Prezidentimizin nitqində Azərbaycan dövlətinin və parlamentinin tarixi, ölkəmizin bugünkü inkişafı, dövlətimizin daxili və xarici siyasəti ilə bağlı çox dəyərli fikirlər ifadə edilib. Dövlət başçısı Milli Məclisin fəaliyyətinə yüksək qiymət verib. Cənab Prezidentin söylədiyi bu fikir bizim üçün çox əhəmiyyətlidir: "Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir... Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu var". Parlamentin fəaliyyətinə bu cür yüksək qiymət verdiyinə görə cənab Prezidentə hamımızın adından dərin minnətdarlığımızı bildirirəm. Onu əmin etmək istəyirəm ki, həmişə olduğu kimi, bundan sonra da Milli Məclis Azərbaycan Respublikası Prezidentinin uzaqgörən siyasətini parlament səviyyəsində dəstəkləmək üçün bütün tədbirləri görəcəkdir".**

O.Əsədovun sözlərinə görə, təntənəli iclasda 44 ölkədən və 9 beynəlxalq təşkilatdan 300-ə yaxın nümayəndə iştirak edib. Onların arasında 14 parlament sədri, 20 sədr müavini vardı. Bundan başqa, təntənəli iclasda ölkəmizdə akkreditə olunmuş səfirlər və səfirliklərin nümayəndələri də iştirak ediblər. **"Hesab edirəm ki, biz Azərbaycan parlamentinin yubileyinin yüksək səviyyədə qeyd edilməsinə nail olmuşuq"**, - deyə parlamentin sədri vurğulayıb.

Milli Məclisin 2018-ci ilin yaz və növbədənkənar sessiyalarını uğurla başa vurduğunu xatırladan O.Əsədov qeyd edib ki, bu dövr ərzində parlamentin 16 iclası keçirilib, bu iclaslarda 261 qanun və qərar qəbul olunub: **"Milli Məclisin beynəlxalq əlaqələri daha da inkişaf edib. Parlamentin yaz, növbədənkənar sessiyalarında və sonrakı dövrdə millət vəkillərimiz 38 ölkəyə 90-a qədər səfər həyata keçiriblər. 57 xarici dövlətin 100-ə qədər nümayəndə heyəti Milli Məclisdə olub. Milli Məclisin xətti ilə Bakıda 5 beynəlxalq təşkilatın tədbirləri keçirilib. Bu gün biz Milli Məclisin yeni sessiyasına başlayırıq. Payız sessiyasının qanunvericilik işləri planı hazırlanmış və sizə paylanmışdır. Bu sessiyada bir sıra zəruri aktların qəbul olunması nəzərdə tutulur. Xüsusən biz Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında qanun layihəsini və büdcə zərfinə daxil olan digər sənədləri müzakirə və qəbul edəcəyik. Mən əminəm ki, Milli Məclisin payız sessiyası yüksək səviyyədə keçəcəkdir".**

Daha sonra gündəlikdəki məsələlər müzakirəyə çıxarılıb. İlk olaraq, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında" Konstitusiya Qanununa dəyişiklik edilməsi məsələsi ikinci səsverməyə çıxarılıb. Daha sonra "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu birinci oxunuşda qəbul olunub.

Bundan sonra isə millət vəkilləri Milli Məclisin 2018-ci il payız sessiyasının qanunvericilik işləri planını müzakirə ediblər. Çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, ilk növbədə, Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı keçirilən tədbiri və tədbirdə Prezident İlham Əliyevin dərinməzmunlu çıxışının əhəmiyyətini vurğulayıb.

Payız sessiyasının qanunvericilik işləri planında vacib məsələlərin olduğunu deyən millət vəkilinin sözlərinə görə, sessiya dövründə bir sıra qanunların təkmilləşdirilməsi də önəmlidir: **"Gələn il Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçiriləcək. Bələdiyyə seçkiləri ilə bağlı kifayət qədər qanunlar mövcuddur. Lakin onların təkmilləşdirilməsinə ehtiyac var".**

S.Novruzov bildirib ki, ölkədə bələdiyyə üzvlərinin sayı həddindən çoxdur: **"Dünya təcrübəsində götürsək, heç bir ölkədə bu sayda bələdiyyə üzvü yoxdur. Azərbaycanda ən kiçik kəndlərdə belə 3-5 bələdiyyə üzvü seçilir. Burada 1 nəfərin olması kifayətdir. Bir rayondan 1 və ya 2 millət vəkili seçilir, lakin 200-300-dən artıq bələdiyyə üzvü seçilir. Hesab edirəm ki, biz bunu təkmilləşdirməliyik. Bu, onların iş fəaliyyətinə də xeyli təsir edəcək".**

Deputat çıxışı zamanı Azərbaycanda yas və toy mərasimləri ilə bağlı qanunların təkmilləşdirilməsinə ehtiyac olduğunu deyib: **"Doğrudur, bu mərasimlər xalq tərəfindən müəyyənləşdirilir. Amma bunların qanunla tənzimlənməsinə ehtiyac yaranıb. Hansısa tövsiyələrlə bunun tənzimlənməsi mümkün deyil. Belə halda, nəticə əldə edilmir. Çünki oradan vəsait qazanan insanlar buna imkan vermirlər. Bu baxımdan mərasimlərin tənzimlənməsi istiqamətində konkret olaraq qanun qəbul etməliyik".**

**"Azərbaycanda son dövrlər autizm xəstəliyi geniş yayılmağa başlayıb. Autizm xəstəliyinin müalicəsi uzun müddət və çoxlu xərc tələb edir. Bu baxımdan, düşünürəm ki, belə xəstəliyin daşıyıcılarının müalicəsi ilə bağlı xüsusi qanun qəbul olunsun və bu, müəyyən şəkildə dövlət büdcəsi vasitəsilə kompensasiya edilsin. Eyni zamanda, bu xəstəliyin yaranma səbəbləri və qarşısının alınması ilə bağlı tədqiqatların aparılmasına da ehtiyac var. Çünki bu xəstəlik genefondumuza ciddi zərbə vurur".** Bu fikirləri isə "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışı zamanı deyib.

Azərbaycanda demoqrafik vəziyyətə toxunan millət vəkili deyib ki, son illər əhalinin artım səviyyəsi aşağı düşməkdədir. Bu halın gələcəkdə demoqrafik problemlərə gətirib çıxara biləcəyini deyən Hikmət Babaoğlu qeyd edib ki, problemin qarşısını almaq üçün müvafiq qanunlara dəyişikliklər edilməli və çoxuşaqlı ailələrə güzəştlər tətbiq olunmalıdır.

İnformasiya təhlükəsizliyi məsələsinə gəlincə, millət vəkili bu istiqamətdə müəyyən qanunların qəbul olunduğunu deyib. Bununla belə, o qeyd edib ki, hazırkı mərhələdə Azərbaycanın informasiya təhlükəsizliyini təhdid edən əsas mənbələrdən biri sosial şəbəkələrdir. Ona görə də sosial şəbəkə iştirakçılarının fəaliyyətinin qanunla tənzimlənməsi lazımdır.

Hikmət Babaoğlu çıxışı zamanı Azərbaycanda çəkilən filmlərlə bağlı da fikirlərini bildirib: **"Azərbaycanda milli seriallar, kinolar çəkilir. Lakin onların keyfiyyəti, aktuallığı və milli maraqlar baxımından izah olunması bir qədər mürəkkəbdir. Bəlkə, filmlərin çəkilməsi ilə bağlı şuralar yaradılmalı, ssenarilər həmin şuralar vasitəsilə qiymətləndirildikdən sonra filmlər çəkilməlidir. Əgər onlar milli maraqlarımıza, milli mənəvi dəyərlərimizə cavab vermirsə, belə filmlərə sərmayə qoymaq lazım deyil".**

O həmçinin qeyd edib ki, tarixi abidələrimizin qorunması və öyrənilməsi də vacibdir: **"Onların düzgün təqdim olunması da çox önəmlidir. Bilirsiniz ki, ölkəmizə xeyli sayda əcnəbi turistlər gəlir. Biz tarixi abidələrimiz haqqında onlara dolğun məlumat verməliyik. O cümlədən xristianlıq dövrü tariximizlə bağlı abidələrimiz geniş tədqiq və təqdim olunmalıdır ki, başqaları onlara sahib olmağa çalışmasın".**

Xarici dillərin öyrənilməsinin də əhəmiyyətli olduğunu deyən millət vəkili bildirib ki, çox dil bilmək yaxşı olsa da, əsas milli təfəkkürə sahib olmaqdır: **"Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, Azərbaycan dilini bilmədən azərbaycanlı olmaq mümkün deyil. Ona görə də, ilk növbədə, milli təfəkkürə sahib olmaq lazımdır".**

Millət vəkili Azay Quliyev isə "Sosial sifariş haqqında" və "Peşə birlikləri haqqında" qanun layihələrinin hazırlanaraq müzakirəyə çıxarılmasını təklif edib.

Millət vəkili Zahid Oruc çıxışında informasiya təhlükəsizliyinin önəmi haqqında danışıb. O təklif edib ki, bunun üçün sosial şəbəkələrə ciddi nəzarət olunmalıdır.

Müzakirələrdən sonra Milli Məclisin 2018-ci il payız sessiyasında qanunvericilik işləri planı təsdiqlənib. Payız sessiyasının qanunvericilik işləri planına Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisin deputatlarının, Ali Məhkəmənin, Baş prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təqdim etdiyi qanun layihələri, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında", "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında", "Azərbaycan Respublikasının Dövlət himni haqqında", "Konstitusiya qanunu layihələri", "Standartlaşdırma haqqında", "Kabel şəbəkəsi haqqında", "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında" və digər qanun layihələri daxildir.

Bundan əlavə, işlər planına Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi ilə bağlı layihələr daxil edilib.

Daha sonra millət vəkilləri bir sıra beynəlxalq sənədləri və xarici dövlətlərlə imzalanmış sazişləri təsdiq ediblər. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında" Sazişin təsdiq edilməsi məsələsinin müzakirəsi zamanı çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov türk filmlərinin Azərbaycan dilinə dublyaj edilməsinə ehtiyac olmadığını bildirib. Yerli telekanallarda edilən tərcümələrin bayağı olduğunu deyən millət vəkili tərcümənin titrlərlə verilməsini təklif edib.

Qeyd edək ki, millət vəkilləri fasilədən sonra bir sıra qanunlara əlavə və dəyişikliklər ediblər.

**Nardar BAYRAMLI**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul



Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin muxtar respublikaya yeni təyin olunmuş Baş konsulu Məhmət Emin Kirazı qəbul edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Məhmət Emin Kirazı muxtar respublikada Baş konsul kimi fəaliyyətə başlaması münasibətilə təbrik edib. Naxçıvan Muxtar Respublikası ilə dost və qardaş Türkiyə arasında iqtisadi-ticarət, hərbi, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri münasibətlərin daha da möhkəmləndirilməsində Baş konsula uğurlar arzulayıb.

Məhmət Emin Kiraz səmimi qəbula görə minnətdarlıq edib, qardaş ölkə Azərbaycanın Türkiyə ilə yeganə sərhədi olan Naxçıvan Muxtar Respublikasında diplomatik fəaliyyət göstərməkdən şərəf duyduğunu və əlaqələrin inkişafında səylərini əsirgəməyəcəyini bildirib.

Söhbət zamanı mövcud əməkdaşlıq imkanları müzakirə olunub.

# Dahi bəstəkar Qara Qarayevin ev muzeyinin açılış mərasimi olub





Oktyabrın 1-də dahi bəstəkar Qara Qarayevin paytaxtın Nizami küçəsində yerləşən ev muzeyinin açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev ev muzeyinin açılması münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, bu gün Qara Qarayevin ev muzeyinin açılması dahi bəstəkarın yaradıcılığına böyük bir hədiyyədir. Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq bu il Qara Qarayevin 100 illik yubileyi geniş qeyd olunur, silsilə tədbirlər keçirilir. Məşhur bəstəkar gənclik, tələbəlik illərini bu evdə yaşayıb, ilk əsərlərini, o cümlədən "Yeddi gözəl" baletini burada yaradıb.

Ölkəmizdə musiqi və incəsənət xadimlərinin ev muzeylərinin yaradılmasının dövlətin bu sahəyə göstərdiyi qayğının nəticəsi olduğunu qeyd edən Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə deyib: **"Qara Qarayevin gənclik illərini keçirdiyi bu yaradıcılıq ocağı müqəddəs bir məkandır. Burada böyük bəstəkar sənətə doğru uzanan yolda ilk addımlarını atıb. Onun tələbələri belə böyük bir bəstəkardan dərs aldıqları üçün fəxr edirlər. Ondan yalnız bəstəkarlıq deyil, mənəviyyat dərsi alıblar. Qara Qarayev çox təvazökar, ziyalı insan idi. Ölkəmizi dünya miqyasında şərəflə təmsil edən dahi bəstəkar öz tələbələrinin xatirəsində həmişə yaşayacaq".**

Qara Qarayevin yaradıcılıq yolundan danışan Azərbaycan Yazıçılar İttifaqının sədri, Xalq yazıçısı Anar böyük bəstəkarı həm keçmişin, həm də gələcəyin sənətkarı adlandırıb: **"Qarayev dünyada Azərbaycan musiqisinin elçisi idi. Onun bu evdə yaratdığı "Yeddi gözəl" baleti və başqa əsərləri dünyanın müxtəlif ölkələrində səsləndirilib. Onun əsərlərində Albaniya, Vyetnam, İspaniya və digər ölkələrin musiqi motivləri duyulurdu. Qara Qarayev Azərbaycan musiqisində çox böyük izlər qoyub".**

Sonra Qara Qarayevin ev muzeyinin açılışı olub. Bəstəkarın qızı Züleyxa Qarayeva mərasim iştirakçılarını ev muzeyi ilə tanış edib.

Tədbirdə, həmçinin Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə nəşr etdiyi "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından Qara Qarayevin həyat və yaradıcılığına həsr olunmuş qısa oçerklərdən ibarət kitab və disk təqdim olunub. Kitabın elmi redaktoru professor Kərim Tahirov nəşr haqqında məlumat verib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli, Xalq artisti Tofiq Bakıxanov və başqaları Qara Qarayevin yüksək sənətkarlıq məharətindən, Azərbaycan musiqi sənətinə bəxş etdiyi əvəzsiz musiqi əsərlərindən danışıblar.

Mərasimdə, həmçinin Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Sərəncamı ilə "Xalq artisti" fəxri adına layiq görülmüş dahi bəstəkarın oğlu Fərəc Qarayevə yüksək fəxri adın vəsiqəsini və döş nişanını təqdim edib.

Tədbir bəstəkarın əsərlərindən ibarət musiqi nömrələri ilə yekunlaşıb.

# Siyavuş Novruzov: Azərbaycan cəmiyyətində heç bir nüfuza və dəstəyə malik olmayan bəzi "siyasi oyunbazlar" Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini manipulyasiya predmetinə çevirərək öz maraqlarını təmin etməyə çalışırlar



*"Azərbaycan dövləti Ermənistanın işğalçı siyasəti nəticəsində meydana çıxmış Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması istiqamətində qətiyyətli mövqeyini və siyasətini davam etdirir".* Bu fikri Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

Onun sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar zəruri addımlar atılır: *"Danışıqlar prosesində Azərbaycanın prinsipial mövqeyi birmənalı şəkildə ifadə edilir. Azərbaycan dövləti bütün diplomatik imkanlardan və beynəlxalq tribunalardan istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqət mərkəzində saxlayır. Bununla yanaşı, Azərbaycan Ordusunun gücləndirilməsi - ölkəmizin hərbi qüdrətinin daha da artırılması istiqamətində məqsədyönlü fəaliyyət uğurla davam etdirilir. Paytaxt Bakıda keçirilən son iki möhtəşəm hərbi parad ən müasir silahlarla təchiz edilmiş Azərbaycan Ordusunun qüdrətini bir daha nümayiş etdirdi. Digər tərəfdən, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müharibə veteranlarına, şəhid ailələrinə yüksək diqqət və qayğı göstərilməsi Azərbaycan iqtidarının Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə və onun nəticələrinin aradan qaldırılmasına olan münasibətini əks etdirir. Bütövlükdə isə, Azərbaycan iqtidarı və xalqı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində sıx birlik nümayiş etdirir".*

YAP İcra katibinin müavini vurğulayıb ki, Azərbaycan cəmiyyətində heç bir nüfuza və dəstəyə malik olmayan bəzi "siyasi oyunbazlar" Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini manipulyasiya predmetinə çevirərək öz maraqlarını təmin etməyə çalışırlar: *"Həmin şəxslərin Qarabağ məsələsi adı altında idman meydançasında mitinq keçirməklə "siyasi şou" təşkil etməsi bunun bariz nümunəsidir. İdman meydançasında keçirilən hər hansı bir mitinq vasitəsilə Dağlıq Qarabağ problemi ilə bağlı münasibət formalaşdırmaq olmaz. Zatən, Azərbaycan xalqı Dağlıq Qarabağ münaqişəsinin həllini, işğal altında olan torpaqlarımızın azad olunmasını istəyir. Bu, ümummilli məsələdir və bütün Azərbaycan xalqı bu məsələdə vahid mövqedədir. Amma görünür, Qarabağ məsələsi adı altında bu mitinqi təşkil edənlərin məqsədləri başqadır. Onlar öz ətrafında adam toplaya bilmədikləri üçün hər bir vətəndaşımızı düşündürən və Azərbaycan xalqının taleyüklü məsələsi olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsindən öz maraqlarını təmin etmək üçün istifadə etməklə yanaşı, bununla düşmən dəyirmanına da su tökmüş olurlar. Hətta həmin qruplar Avropadan, başqa yerlərdən çağırışlar edirlər. Əslində isə, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə bağlı Azərbaycanda mitinq keçirməyə ehtiyac yoxdur, çünki Azərbaycan xalqı işğal olunmuş ərazilərimizin azad edilməsini istəyir. Əgər bu insanları Dağlıq Qarabağ probleminin həlli bu qədər maraqlandırırsa, o zaman onlar Avropa küçələrində, Ermənistan səfirliklərinin, beynəlxalq təşkilatların qarşısında nümayiş keçirsinlər, Xocalı soyqırımı ilə bağlı müxtəlif təbliğat materialları yaysınlar, etirazlarını bildirsinlər. Lakin biz tam əksini müşahidə edirik. Milli maraqlara zidd mövqedə duran həmin şəxslər xaricdə Azərbaycan əleyhinə iş aparırlar, ölkə daxilində isə Dağlıq Qarabağ məsələsini qaldırırlar. Bu, onların fəaliyyətinin və təşəbbüslərinin əsl məqsədini ortaya qoyur".*

*"Qarabağla bağlı çağırış edən mitinq təşkilatçıları övladlarını xaricdə saxlayaraq hərbi xidmətə göndərməyiblər. Əgər bir şəxs Qarabağla bağlı çağırış etmək istəyirsə, ilk növbədə, öz övladını gətirərək təqdim edər və deyər ki, müharibə başlayarsa, övladı Vətənin müdafiəsi üçün müharibədə iştirak edə bilər. Yalnız bundan sonra sözügedən şəxslərin xalq qarşısında Dağlıq Qarabağ məsələsi ilə bağlı hansısa fikir irəli sürməyə mənəvi haqqı olar. Onlar müxtəlif siyasi məqsədlərə xidmət edən və bununla xalqın heysiyyəti ilə oynamağa cəhd göstərən insanlardır. Deyirlər ki, guya mitinqə gəlməyən Qarabağı istəmir. Bu, olduqca yanlış və məntiqsiz fikirdir. Qarabağla bağlı mitinq kiçik bir idman meydançasına sığan yığıncaq ola bilməz. Qarabağ mitinqi bütün Azərbaycandır, bütün xalqdır, dünya azərbaycanlılarıdır. Təkcə "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sıralarında yüz minlərlə insan birləşib. Ona görə də bu cür bəhanələrdən istifadə edərək Qarabağ adı altında öz çirkin məqsədlərini təmin etmək istəyən insanların çağırışlarına heç kəs uymayacaq. Azərbaycan vətəndaşları reallıqları görür və dəyərləndirirlər",* - deyə S.Novruzov əlavə edib.

YAP İcra katibinin müavini onu da diqqətə çatdırıb ki, istənilən insan Qarabağla bağlı mətbuatda, televiziyada, sosial şəbəkələrdə və müxtəlif informasiya resurslarında fikir bildirə bilir: *"Biz bunu xüsusilə Azərbaycan Ordusunun Aprel döyüşləri və Naxçıvan əməliyyatında düşmənin təxribatçı hərəkətlərinə layiqli cavab verməsi və mühüm qələbə qazanması zamanı da müşahidə etdik. Belə olan halda, bəzi "siyasi oyunbazlar"ın "Qarabağ mitinqi" adı altında Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə deyil, şəxsi münasibətlərini aydınlaşdırmağa həsr etdikləri, öz maraqlarını təmin etmək üçün vasitəyə çevirdikləri mitinq keçirməsi Azərbaycan cəmiyyəti tərəfindən haqlı narazılıq və etirazla qarşılandı. Digər tərəfdən, vaxtilə "Qarabağ kartı" ilə hakimiyyət uğrunda çirkin mübarizə aparanların, Azərbaycanın strateji baxımdan əlverişli rayonlarını, Laçını, Şuşanı və Kəlbəcəri satanların, Xocalı soyqırımından hakimiyyətə gəlmək üçün istifadə edənlərin, dövlət çevrilişlərində iştirak edənlərin, Azərbaycanda hərcmərcliyin - xaosun yaranmasına cəhd göstərənlərin mitinqdə iştirakı olduqca gülünc və paradoksaldır. Həmin şəxslər mitinqdə Qarabağ məsələsini manipulyasiya vasitəsinə çevirərək Azərbaycan hakimiyyətini ittiham edən, üstəlik, mitinqin mövzusuna aidiyyəti olmayan absurd fikirlər səsləndirdilər. Onlar guya Qarabağ məsələsi üçün toplaşmışdılar, amma "Qarabağ kartı" vasitəsilə olmayan nüfuzlarını artırmaq məqsədilə Azərbaycan dövləti və iqtidarı əleyhinə fikirlər ifadə etməklə mitinqi primitiv "siyasi şou"ya çevirdilər. Əlbəttə, Azərbaycan cəmiyyəti bu cür antimilli şəxslərin xalqımızın və dövlətimizin mənafeyinə zidd fikirlərini, mövqeyini ikrah hissi ilə qarşılayır. Azərbaycan vətəndaşları bu şəxslərin əqidəsinə, xalqa və dövlətə münasibətinə yaxşı bələddir. Belələri konkret olaraq Dağlıq Qarabağ probleminin həlli məsələsində ermənilərlə eyni mövqedən çıxış edirlər, erməni təbliğat maşınının absurd tezisləri və iddialarını səsləndirirlər. Əgər belə olmasaydı, mitinqdə onların ittiham xarakterli fikirlərinin ünvanı - hədəfi Azərbaycan dövləti və hakimiyyəti deyil, bilavasitə təcavüzkar Ermənistan olardı. Onlar bu məsələdə torpaqlarımızı işğal altında saxlayan təcavüzkar Ermənistanı yox, Azərbaycan dövlətini və iqtidarını hədəfə çevirməyə çalışmaqla milli maraqlara zidd mövqedə olduqlarını bir daha nümayiş etdirdilər".*

*"Bütövlükdə, Azərbaycan xalqının mövqeyini və iradəsini əks etdirməyən bu "siyasi şou" xarakterli mitinqdə səsləndirilən pafoslu fikirlər tamamilə reallıqlardan uzaq idi. Bəzi "siyasi oyunbazlar" çıxışlarında Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycan iqtidarını və dövlətini hədəfə almaqla konkret siyasi məqsədlər güddüklərini nümayiş etdirdilər. Beləliklə, bir daha aydın oldu ki, bu, müxtəlif siyasi məqsədlərə xidmət edən və Dağlıq Qarabağ məsələsindən manipulyasiya vasitəsi kimi istifadə etməyə çalışan bir qrup "siyasi oyunbaz"ın təşkil etdiyi mitinqdir",* - deyə S.Novruzov bildirib.

# Bilik Fondunun Himayəçilik Şurasının yeni tərkibdə ilk iclası keçirilib





Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının yeni tərkibdə ilk iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Bilik Fondunun mətbuat xidmətindən məlumat verilib.

AMEA-nın prezidenti, akademik Akif Əlizadənin sədrliyi ilə keçirilən iclasda Bilik Fondunun Himayəçilik Şurasının üzvləri - Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov, mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman naziri Azad Rəhimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Prezident yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, həmçinin təhsil nazirinin müavini Firudin Qurbanov iştirak ediblər.

Fondun icraçı direktoru O.Səmədov Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 7 may tarixli Fərmanı ilə yaradılmış Bilik Fondunun ölkə əhalisinin elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji və humanitar biliklərinin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi, dini dəyərlərin təbliği, ekoloji təfəkkürün formalaşdırılması, Azərbaycan dövlətinin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi layihələr, maarifləndirici proqramlar üzrə təşkil olunan mühazirələr, elmi-praktik konfranslar və seminarlar, müzakirələr və təqdimatlar, sərgilər və müsabiqələr, bölgələrdə fəaliyyət göstərən Bilik evlərində yerli gənclər üçün təşkil olunan təlim kursları və dərnəklər barədə geniş məlumat verib.

Himayəçilik Şurasının üzvü, Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov Bilik Fondunun dördillik fəaliyyətini müsbət dəyərləndirərək, dövlətimizin başçısının Sərəncamı ilə təyin olunmuş Şura üzvlərinin onlara göstərilən yüksək etimadı doğruldacaqlarına əmin olduğunu bildirib.

Prezidentin köməkçisi Bilik Fonduna dövlətin geniş ictimaiyyətə çatdırmaq istədiyi fikir və ideyaların sistemləşdirilməsi, milli təbliğatın forma və məzmun müxtəlifliyinin təmin olunması, Şura üzvlərinin Bilik Fondunun paytaxt və bölgələrdə keçirdiyi tədbirlərə dəvət edilməsi, Fond vasitəsilə xalqımızın tarixi və mədəniyyətinin, milli-mənəvi dəyərlərinin gənc nəslə daha yaxından tanıdılması, əhalinin maarifləndirilməsində kütləvi informasiya vasitələrinin imkanlarından daha geniş istifadə edilməsi, Azərbaycan reallıqlarının sosial şəbəkə istifadəçilərinin geniş auditoriyasına dəqiq və düzgün çatdırılması məqsədilə yeni maarifləndirici veb-saytın yaradılması ilə bağlı tövsiyələr verib.

Çıxış edənlər Bilik Fondunun gələcək fəaliyyəti barədə fikir və mülahizələrini bölüşüb, təklif və tövsiyələrini səsləndiriblər.

Mədəniyyət naziri Əbülfəs Qarayev Bilik Fondunun nazirliklə, müvafiq müəssisə və təşkilatlarla, xüsusilə də bölgələrdə fəaliyyət göstərən Mədəniyyət evləri, şəhər və rayon kitabxanaları ilə sıx əməkdaşlıq etdiyini bildirib, mövcud əlaqələrin genişlənməsinin zəruriliyini qeyd edib, Fond vasitəsilə sahibkarların gənclərin mədəni maarifləndirilməsi, sərgi və muzeylərlə daha yaxından tanış edilməsi, kino və teatr sənətinə maraqlarının artırılması, kitabxanaların zənginləşdirilməsi işinə cəlb edilməsinin vacibliyini vurğulayıb.

Gənclər və idman naziri Azad Rəhimov gənc nəslin vətənə məhəbbət və dövlətə sadiqlik ruhunda tərbiyə olunmasında Bilik Fondunun böyük imkanlara malik olduğunu vurğulayaraq, bölgələrdə fəaliyyət göstərən Gənclər evləri və Olimpiya komplekslərində keçirilən maarifləndirici tədbirlərin mütəmadiliyinin təmin olunmasında, Bilik Fondunun nazirlik və ona tabe qurumlarla birgə layihələrinin icrasında yardımçı olacağını bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Bilik Fondunun rəhbərlik etdiyi qurumla birgə həyata keçirdiyi layihələri, o cümlədən cəmiyyətdə böyük maraqla qarşılanan "Ailəliklə kitabxanaya" layihəsini xatırladaraq, Fondun maarifləndirici fəaliyyətində azərbaycançılıq məfkurəsinin, xalqımıza məxsus milli-mənəvi və əxlaqi dəyərlərin davamlı təbliğinə, gənclərin elmi biliklərinin artırılması, maarifləndirmə prosesində informasiyanın onlara düzgün çatdırılması ilə bağlı tədbirlərə xüsusi yer ayrılmasının vacibliyini qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı rəhbərlik etdiyi qurumun Bilik Fondu ilə sıx əməkdaşlığına diqqət çəkərək, maarifləndirmə işinin təşkilində dinləyici auditoriyasının düzgün seçiminə, bu istiqamətdə fəaliyyət göstərən müəssisə və təşkilatların Bilik Fondu vasitəsilə əlaqələndirilməsinə, əhalinin dini maarifləndirilməsinə xidmət edən sənədli və bədii filmlərin çəkilişinə xüsusi diqqət yetirilməsini tövsiyə edib. Komitə sədri sadalanan sahələrdə Bilik Fondu ilə əməkdaşlığa gələcəkdə də xüsusi önəm veriləcəyini bildirib.

Təhsil nazirinin müavini Firudin Qurbanov Bilik Fondunun ölkənin təhsil müəssisələrində, xüsusilə orta məktəblərdə təşkil etdiyi tədbirlərin əhəmiyyətindən söz açıb, yeniyetmə və gənclərin ekoloji tərbiyəsinə, müxtəlif məzmunlu layihələrin birgə həyata keçirilməsinə, yerlərdə maarifləndirici mövzulara tələbatın sosioloji sorğular vasitəsilə öyrənilməsinə diqqət yetirilməsini tövsiyə edib və bildirib ki, təmsil etdiyi nazirlik yeniyetmə və gənclərin təlim və tərbiyəsində Bilik Fondu ilə əməkdaşlığın daha da möhkəmlənməsində maraqlıdır.

İclasa yekun vuran Himayəçilik Şurasının sədri, AMEA-nın prezidenti, akademik Akif Əlizadə elmlə təhsilin inteqrasiyasında Bilik Fondunun fəal iştirakının təmin edilməsi, alimlərin gənclərlə canlı ünsiyyətə cəlb edilməsi, elmi turların və ekspedisiyaların təşkilinə dəstək göstərilməsi ilə bağlı məsələlərdən söz açıb, maarifləndirici layihələrdə AMEA institutlarının elmi kadr potensialından daha səmərəli istifadə edilməsinin vacibliyini diqqətə çatdırıb.

Akademik Şura üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb və Fondun yeni tərkibli Şuranın himayəçiliyi altında ölkədə bilikli insan kapitalının formalaşmasında bundan sonra da fəal iştirak edəcəyinə əmin olduğunu bildirib.

# Prokurorluq işçilərinin peşə bayramı günü və Milli Prokurorluğun yaradılmasının 100 illik yubileyi geniş qeyd olunub







Xalqımızın Ümummilli lideri Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən həmin ildən etibarən hər il öz peşə bayramlarını qeyd etmək imkanı əldə edən Azərbaycan Respublikası Prokurorluğunun kollektivi bu gün milli prokurorluq orqanlarının yaradılmasının 100 illik yubileyini və növbəti peşə bayramını qeyd edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 1-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və Milli Prokurorluğun yaradılmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov prokurorluq işçilərinin peşə bayramı günü və Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibətilə dövlətimizin başçısı İlham Əliyevin təbrik məktubunu oxuyub.

Tədbirdə çıxış edən baş prokuror Zakir Qaralov Azərbaycan Prokurorluğunun 100 illik yubileyi və peşə bayramı günü münasibətilə Baş Prokurorluğun kollegiyası adından prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini səmimi qəlbdən təbrik edərək bildirib ki, Azərbaycan Prokurorluğunun demokratik məzmunda tamamilə yenidən formalaşması, mili maraqlarımıza xidmət edən bir dövlət təsisatı kimi hərtərəfli təkmilləşməsi və müasirləşməsi məhz Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik siyasəti və Onun gündəlik qayğısı nəticəsində mümkün olub.

Bildirilib ki, xalqımızın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılaraq, dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilib, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusu yaradılıb. Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə cəmiyyətdə statusuna uyğun yerini tutub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubiley münasibətilə prokurorluq əməkdaşlarına və veteranlara ünvanlanmış təbrikinin əhəmiyyətini vurğulayan baş prokuror bildirib ki, Azərbaycan Prokurorluğunun 100 illik tarixi ərzində keçdiyi inkişaf yoluna, Azərbaycan Xalq Cümhuriyyəti dövründə və ondan sonrakı tarixi mərhələlərdəki fəaliyyətinə qiymət verən həmin müraciətdə Ümummilli liderin rəhbərliyi ilə milli prokurorluğun sağlamlaşdırılması və müasirləşdirilməsi istiqamətində görülən işlər, cəmiyyətimizin və dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər diqqətə çatdırılıb, müasir dövrdə prokurorluq orqanlarının qarşısında duran vəzifələr müəyyənləşdirilib. Eyni zamanda, minnətdarlıq hissi ilə qeyd edilib ki, yubiley ərəfəsində dövlətimizin başçısı İlham Əliyevin imzaladığı Sərəncamla bir qrup prokurorluq əməkdaşının yüksək dövlət mükafatları - orden və medallarla təltif edilməsi kollektivin böyük sevincinə səbəb olub.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran Prezident İlham Əliyevin ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işləri diqqətə çatdıran baş prokuror vurğulayıb ki, son dövrlərdə Azərbaycan Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvü kimi layiq olduğu yerini tutub.

Qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada iqtisadi və maliyyə böhranlarının hökm sürməsinə baxmayaraq, sabit və təhlükəsiz şəraitdə sosial-iqtisadi tərəqqisinin təmin edilməsi, iqtisadi rəqabətqabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi, dünyada nüfuzunun artması, respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi hər bir azərbaycanlını gələcəyə ruhlandırır.

Vurğulanıb ki, Ulu öndər Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 2000-ci il aprelin 26-da keçirdiyi tarixi görüşdən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli və bütün sahələri əhatə edən islahatlar aparılmaqla fəaliyyəti üçün zəruri normativ hüquqi bazası yaradılıb, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə işin səmərəli təşkili, yüksək tələblər səviyyəsində işləmək bacarığı olan kadr korpusu formalaşdırılıb.

Bir çox dövlət təsisatı kimi prokurorluq orqanlarının da yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət sürdüyü 23 aylıq dövrə təsadüf edir. 1918-ci il 1 oktyabr tarixli qərarla Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla əsası qoyulmuş milli prokurorluq orqanları öz 100 illik tarixi ərzində xalqımızın müstəqilliyi uğrunda apardığı mübarizənin tarixi ilə bərabər şəkildə çətin və mürəkkəb, eyni zamanda, şərəfli bir inkişaf yolu keçərək, bugünkü şəkildə formalaşıb, fəaliyyət göstərdiyi bütün dövrlərdə millətinə və dövlətçilik ideyalarına sədaqətlə qulluq edib, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə işində öz xidmətlərini göstərib.

Xüsusi vurğulanıb ki, dövlət səviyyəsində göstərilən yüksək diqqətin nəticəsi olaraq, ixtisaslaşdırılmış qurum kimi Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti üçün normal şəraitin yaradılması, əməkdaşlarının sayının əhəmiyyətli dərəcədə artırılmaqla çevik fəaliyyəti təmin etməyə qadir yeni strukturun formalaşdırılması, MDB məkanında, habelə Azərbaycan tarixində ilk dəfə olaraq, bu quruma əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi səlahiyyətinin verilməsi, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və digər bu kimi islahat tədbirləri korrupsiya hallarının qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin səmərəliliyini daha da artırıb, profilaktiki fəaliyyət daha da gücləndirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun tətbiq edilməsi barədə Sərəncamına əsasən Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin yaradılması və sonrakı illərdə fəaliyyətinin təkmilləşdirilməsi korrupsiyaya qarşı mübarizə sahəsində siyasi iradənin ən yüksək təzahürü və ölkə rəhbərliyinin prokurorluq orqanlarının cəmiyyətdəki roluna, funksiyalarına və fəaliyyətinə göstərilən inam və etimadın təcəssümü kimi dəyərləndirilib.

Mərasimdə qeyd edilib ki, ötən dövrlər ərzində "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin düzgün təşkili, istintaq fəaliyyətinin təkmilləşdirilməsi, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyin və istintaq üzərində prokuror nəzarəti, dövlət ittihamının müdafiəsi, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin səmərəliliyinin yüksəldilməsi, mövcud çatışmazlıqların təxirəsalınmadan aradan qaldırılmaqla ciddi nəzarət mexanizminin yaradılması, xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Diqqətə çatdırılıb ki, dövlətimizin başçısı tərəfindən prokurorluq orqanlarına daim yüksək diqqət və qayğı göstərilərək prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə 2008-ci il 27 sentyabr tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın Azərbaycan Prokurorluğunun 100 illik tarixində ən önəmli hadisələrdən biri olmaqla yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyub.

Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasında müstəsna əhəmiyyətə malik olmuş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılması nəticəsində prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin qurulması üçün hərtərəfli zəmin yaradılıb, eləcə də prokurorluq işçilərinin sosial müdafiəsi gücləndirilərək prokurorluğun maddi-texniki təminatı yaxşılaşdırılıb. Prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər sırasında Gəncə və Sumqayıt Şəhər prokurorluqlarının ən müasir standartlara cavab verən yeni inzibati binalarının tikilərək yubiley ərəfəsində əməkdaşların istifadəsinə verilməsi xüsusi qeyd edilib.

Bildirilib ki, ölkəmizdə reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq, mütərəqqi və şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun yeniləşdirilməsi istiqamətində aparılan məqsədyönlü işlərin nəticəsi kimi, 2002-ci ildən başlayaraq keçirilən 19 müsabiqə nəticəsində qulluğa qəbul edilən 873 gənc hüquqşünasın Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun 67 faizini təşkil etməsi, müxtəlif sahələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilməsi, alternativi olmayan müsabiqə yolu ilə qulluğa qəbulun bundan sonra da davam etdiriləcəyinə əminlik yaradıb.

Tədbirdə çıxış edən prokurorluğun veteranı Qənimət Səfərov prokurorluq orqanlarının keçdiyi şərəfli yoldan, Baş Prokurorluğun hüquqi təminat idarəsinin prokuroru Vüsal Mehrəliyev isə prokurorluğa qulluğa qəbul edilmiş gənclərə göstərilən dövlət qayğısından ətraflı söz açıblar.

Çıxışlarda qəti inam ifadə olunub ki, bu gün öz peşə bayramını və 100 illik yubileyini qeyd edən Azərbaycan Prokurorluğunun kollektivi öz məsuliyyətini dərindən dərk etməklə, fəaliyyətinin dövlət tərəfindən göstərilən etimada layiq səviyyədə qurulması üçün zəruri tədbirlərin görülməsini təmin edəcək, respublikamızın dinamik inkişafına istiqamətləndirilmiş yeni məzmunlu dövlətçilik siyasətinin reallaşdırılmasında öz xidmətlərini göstərəcək.

Mərasimdə xidmətdə fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə baş prokuror tərəfindən "Azərbaycan Prokurorluğunun 100 illiyi" yubiley medalı, "Prokurorluğun fəxri işçisi" döş nişanı, fəxri fərmanlar və digər təltiflər təqdim edilib.

Tədbirin yekununda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

# Eldar İbrahimov: Azərbaycan diplomatiyası növbəti uğurunu qazandı



**"Azərbaycan-Rusiya əlaqələri yüksələn xətlə inkişaf edir. Rusiya Prezidenti Vladimir Putinin sentyabrın 27-də Azərbaycana səfəri yüksək səviyyədə baş tutdu. Bu, Vladimir Putinin Azərbaycana son 5 il ərzində 4-cü səfəri, son 1 ayda isə Azərbaycan Prezidenti İlham Əliyevlə ikinci görüşü idi".** Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, cənab Putinin səfərinin məqsədi əvvəlcədən elan edildiyi kimi, Azərbaycanda keçirilən cüdo üzrə dünya çempionatını izləmək və IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasiminə qatılmaq olsa da, təbii ki, səfər zamanı iki dövlət başçısının keçirdiyi təkbətək görüşdə digər bir sıra mühüm məsələlər də müzakirə mövzusu oldu. Dövlət başçıları münasibətlərin yüksək səviyyəsindən, əldə edilən iqtisadi, siyasi, ticari, mədəni-humanitar uğurlardan, onların davam etdirilməsindən, əlaqələrin gələcək inkişafından bəhs ediblər. Ən əsası, bu qarşılıqlı mübasibətlərin və əlaqələrin hər iki xalqın və dövlətin mənafelərinə cavab verməsindən məmnunluq ifadə olunub.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin həllində vacib rol oynayır. Onun sözlərinə görə, işğalçı Ermənistanın yeni hakimiyyəti Rusiyaya qarşı səmimi deyil. Buna görə də Rusiyanın bu münaqişənin ədalətli həlli istiqamətində səylərini artıracağı gözlənilləndir.

**"Bildiyiniz kimi, Tacikistanda keçirilən MDB dövlət başçılarının sammiti çərçivəsində Prezident İlham Əliyevlə Ermənistanın baş naziri söhbət ediblər. Söhbət zamanı təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində gərginliyin azaldılması, danışıqlar prosesinin davam etdirilməsi qərara alınıb. İndiyə qədər Paşinyan Dağlıq Qarabağ separatçılarının danışıqlarda iştirakından danışırdı. Artıq Azərbaycanın güclü mövqeyi nəticəsində o, öz mövqeyindən geri çəkildi. Bu fakt Azərbaycan diplomatiyasının növbəti uğurudur",** - deyə E.İbrahimov vurğulayıb.

# Təhsil sistemimiz beynəlxalq standartlara uyğun olaraq irəliləyir



***Azərbaycan Respublikası təhsil nazirinin müavini Məhəbbət Vəliyeva www.yap.org.az saytına müsahibə verib*:**

**- Məhəbbət xanım, ölkəmizdə artıq yeni tədris ili başlayıb. Hər il 15 sentyabr - Bilik Günü respublikamızda böyük təntənə ilə qeyd olunur. Bu baxımdan, yeni tədris ili və bu ilə hazırlıq məsələləri ilə bağlı fikirlərinizi bildirməyi xahiş edirik...**

- İlk növbədə, yeni tədris ilinin başlanması münasibətilə ölkəmizin təhsil ictimaiyyətini, müəllimləri, şagirdləri və tələbələri, valideynləri təbrik edirəm. Ötən dərs ilində "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ümumi təhsil sisteminin müasir dövrün tələb və çağırışlarına uyğun inkişafı ilə bağlı müəyyənləşdirilmiş hədəflərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi daim diqqətdə saxlanılıb, onların reallaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin dəstəyi və qayğısının nəticəsi olaraq yeni məktəblərin inşası, o cümlədən ucqar yaşayış məntəqələrindəki yararsız vəziyyətə düşmüş azkomplektli məktəblər üçün modul tipli binaların quraşdırılması, eləcə də ümumtəhsil məktəblərinin əsaslı təmiri və maddi-tədris bazasının möhkəmləndirilməsi sahəsində aparılan işlərin ardıcıl davam etdirilməsi bütövlükdə ümumi təhsilin infrastrukturunun yenidənqurulmasına, təlim-tərbiyə şəraitinin, təhsilin keyfiyyətinin yaxşılaşmasına, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə müstəsna dərəcədə əhəmiyyətli təsir göstərib. Ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri barədə Azərbaycan Respublikası təhsil nazirinin 14 avqsut 2018-ci il tarixli əmrinə müvafiq olaraq Təhsil Nazirliyi tərəfindən "Ümumi təhsildə keyfiyyət ili"ndə əldə olunmuş müsbət dinamikanın qorunub saxlanılması və mahiyyətcə inkişafyönlü tədbirlərin 2018-2019-cu dərs ilində də davam etdirilməsi məqsədəuyğun hesab olunub. Yeni tədris ilinə hazırlıq çərçivəsində ötən dərs ilinin nəticələri təhlil olunub və yeni hədəfləri əhatə edən fəaliyyət planı hazırlanıb. Bu planda ümumi təhsilin bütün səviyyələri üzrə təlim-tərbiyə prosesinin təşkili, məktəbdaxili qiymətləndirmə, buraxılış imtahanları və ali məktəblərə qəbul qaydalarına şamil olunan yeni konsepsiya, o cümlədən məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində ciddi dəyişikliklər nəzərdə tutulub. Bu dərs ilindən başlayaraq məktəblərdə həftənin ilk iş günü Vətənpərvərlik nümunəsi kimi Dövlət himninin ifası ilə başlayır. Bu da təhsilalanların milli-mənəvi, əxlaqi dəyərlərə sahib olan və əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında təhsil müəssisələri qarşısında duran əsas vəzifədir. Bu səbəbdən 2018-2019-cu dərs ilinin əsas prioritetləri arasında milli-mənəvi dəyərlərin, vətənpərvərliyin, fəal vətəndaş mövqeyinin və milli kimliyin formalaşmasına xidmət edən fəaliyyətlərə xüsusi diqqət yetiriləcək. Bu il məktəblərin birici sinfinə 165780 uşaq qəbul olunub. Ümumilikdə isə ümumtəhsil sistemində 1592317 uşaq təhsilə başlayıb. Oktyabr ayının 1-dən etibarən məktəblər ölkə üzrə 5 yaşlı uşaqların 75 faizinin məktəbəhazırlıq qruplarında təlimlərinə başlayacaq. Qeyd edim ki, bu dərs ilində birinci siniflərə qəbul olunan uşaqların 65 faizinin məktəbəhazırlıq mərhələsini keçməsi onların məktəb həyatına daha yüksək hazırlıqlı olduğunu deməyə əsas verir ki, bu da öz növbəsində təhsildə keyfiyyət artımına ciddi təsir göstərir. Ümumiyyətlə, dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlığın dövlət büdcəsi hesabına təşkil edilməsi təhsilə dövlət qayğısının təzahürü kimi qiymətləndirilməlidir.

Yeni dərs ilinə 332 adda 6 726 029 nüsxə dərslik və müəllimlər üçün metodik vəsait çap edilib. Şagirdlər dərslikləri sentyabr ayının 3-dən etibarən təhsil aldıqları məktəbdən əldə etməyə başlayıblar. 11-ci siniflər üçün dərsliklər yeni məzmunda hazırlanıb. 2, 3 və 7-ci siniflər üçün isə dərsliklərin məzmununa əsaslı dəyişikliklər edilib.

**- Bildiyimiz kimi, təhsil sahəsinin inkişafı Azərbaycan dövləti üçün prioritet istiqamətlərdən biridir. Bu gün təhsil sahəsi ilə əlaqədar respublikamızda mühüm islahatlar və Dövlət proqramları həyata keçirilir. Bütün bunların Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası baxımından nə kimi əhəmiyyəti var?**

- Əlbəttə, müasir reallıqlar şəraitində dünyada təhsilin önəmi durmadan artmaqdadır. Gündən-günə güclənən rəqabətlilik dövründə ölkələrin inkişafı məhz təhsildən keçir. İndi təhsil ayrı-ayrı ölkələrin inkişaf istiqamətlərini müəyyənləşdirməklə, cəmiyyətin hərtərəfli inkişafında həlledici faktora çevrilib. Bu mənada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səsləndirdiyi "Əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq, görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklərdir" fikirləri mühüm əhəmiyyət kəsb edir. Buna görə də təhsilin keyfiyyətli inkişafına xidmət edən dövlət sənədləri Azərbaycan təhsil sisteminin yenilənməsi və dünya təhsil məkanına inteqrasiya olunmasında mühüm aspektdir. 2013-cü ildə qəbul edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və 2018-ci ilin iyununda "Təhsil haqqında" Qanuna edilən dəyişikliklər təhsilin bütün pillə və səviyyələrinin modernləşməsini, müasir dövrün hədəfləri nəzərə alınmaqla keyfiyyətli inkişafını nəzərdə tutur ki, bu da milli təhsil sisteminin beynəlxalq cəlbediciliyini artırır. Mühüm dövlət sənədlərində dünyada davam edən ümumi inkişaf tendensiyalarına uyğun olaraq, ölkəmizdə də yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması qarşıya məqsəd kimi qoyulub. Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən iqtisadi strategiyanın əsas prioritetlərindən biri bilik iqtisadiyyatının formalaşdırılması, təhsil, elm və innovasiya arasında effektiv qarşılıqlı əlaqənin yaradılmasıdır. Sevindirici haldır ki, təhsil sistemimiz beynəlxalq standartlara uyğun olaraq irəliləyir və dünya ölkələrinin qabaqcıl təcrübəsindən daha çox bəhrələnir. Ali məktəblərimizdə elmi fəaliyyətin stimullaşdırılması ilə bağlı həyata keçirilən mühüm tədbirlərdən biri kimi, dünyanın tanınmış elmi-analitik informasiya təminatçısı olan "Clarivate Analytics" ("Thomson Reuters") şirkəti ilə 2015-ci ildən başlanan uğurlu əməkdaşlıq öz müsbət nəticələrini verib və artıq universitetlərimizin bu istiqamətdə fəallığı müşahidə olunur. Ümumi təhsil pilləsində beynəlxalq monitorinqlərin keçirilməsi də təhsilimizdə beynəlxalq aspektin güclənməsinə dəlalət edir. Ölkəmizin PİRLS-2016 tədqiqatının nəticələri 2011-ci il ilə müqayisədə yaxşılaşmışdır. Ötən dərs ilində PİSA-2018 tədqiqatı keçirilib, nəticələri isə 2019-cu ildə açıqlanacaq. 2019-cu ildə Azərbaycan məktəbliləri TİMSS beynəlxalq qiymətləndirməsində iştirak edəcək. Şagirdlərimizin iştirak etdiyi beynəlxalq tədqiqatların əhəmiyyətli nəticələri yeni proqramla, kurikulumla oxuyan uşaqların ənənəvi proqramla təhsil alan həmyaşıdlarından daha üstün bacarıqlara yiyələndiyini deməyə əsas verir. Məhz beynəlxalq qiymətləndirmədə davamlı iştirakımız ölkə təhsilinin beynəlxalq standartlara uyğunluğunu, onun müasir dünyada yerini və səviyyəsini obyektiv təyin etməklə yanaşı gələcək prioritetləri və hədəfləri müəyyənləşdirmək üçün ciddi əsas sayılır.

**- Ölkəmizdə insan kapitalının inkişafı da mühüm strateji prioritetlərdən biri kimi müəyyənləşdirilib. Şübhəsiz ki, təhsil bu strateji hədəfə çatmaq üçün ən əhəmiyyətli vasitədir. Bu istiqamətdə həyata keçirilən tədbirlər və əldə edilən nəticələr hansı səviyyədədir?**

- Məlumdur ki, müasir dövrdə hər hansı bir ölkənin inkişafını şərtləndirən əsas amil onun təbii sərvətləri deyil, bu sərvətlərin yüksək səviyyədə insan kapitalına çevrilməsidir. Bu da bir reallıqdır ki, hazırda öz maddi resurslarını ən səmərəli vasitələrlə və qısa müddətdə insan kapitalına çevirməyə nail olan ölkələr daha çox uğur əldə edir. Bir sıra ölkələr öz dövlət strategiyalarında məhz insan kapitalının hərtərəfli formalaşmasına, parlaq zəkaların inkişafına diqqət yetirir ki, bu da ölkəyə böyük gəlirlər gətirməklə bugünkü inkişaf səviyyəsini təmin edir. Prezident İlham Əliyevin uzaqgörənliklə söylədiyi "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir" fikirləri ölkə qarşısında həlli vacib vəzifələrin icrasını qoyur. Bu vəzifələrin böyük hissəsi istənilən ölkənin inkişafının əsas hərəkətverici qüvvəsi olan təhsilin payına düşür. Məhz təhsil biliklər iqtisadiyyatının inkişafına yol açmaqla insan kapitalının formalaşmasını və rəqabət dünyasında ölkənin mövqelərinin möhkəmlənməsini şərtləndirir. Bilik iqtisadiyyatı məhz insan faktorunu önə çəkir. 2013-cü ildə ölkə başçısı İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən, əsas hədəflərimizdən biri təhsilin keyfiyyətini artırmaq və qlobal əmək bazarının tələblərinə cavab verən məzunlar yetişdirməkdir. Qlobal inkişafa nail olmaq üçün insan kapitalının rolu çox vacibdir. Bu səbəbdən də təhsil infrastrukturunun əsaslı şəkildə yeniləşdirilməsi, məzmun islahatları, yeni nəsil dərsliklərin, yeni qiymətləndirmə sisteminin tətbiqi sahəsində əldə olunmuş nailiyyətlər təhsildə insan kapitalının keyfiyyətinə təsir edən başlıca amillərdir. Ötən dərs ilində tədrisin təmayüllər üzrə təşkili, pilot məktəblərin şəbəkəsinin genişləndirilməsi, müəllimlərin diaqnostik qiymətləndirilməsi, işə qəbulun mərkəzləşdirilmiş qaydada elektron sistemlə aparılması, təhsil sisteminə yeni, gənc müəllimlərin cəlb olunması, regionlarda məktəb infrastrukturunun yaxşılaşdırılması, peşə təhsili sahəsində aparılmış uğurlu fəaliyyət, şagirdlərin rəqəmsal savadlılığının artırılması üzrə pilot məktəblərin təşkili, respublika və beynəlxalq olimpiadalarda iştirakın əhatə dairəsinin genişləndirilməsi ümumən insan kapitalının formalaşmasında mühüm əhəmiyyət kəsb edib. Bu fəaliyyət növbəti dərs ilində də davam etdiriləcək.

**- Azərbaycan Respublikasında təhsil sahəsi ilə əlaqədar qanunvericilik bazası davamlı olaraq təkmilləşdirilir. Bu baxımdan, ölkə parlamentində "Təhsil haqqında" qanunla yanaşı, sahəvi qanunlar da (məsələn, "Peşə təhsili haqqında", "Məktəbəqədər təhsil haqqında", "Ümumi təhsil haqqında" qanunlar) hazırlanmasının önəmi haqqında nə deyə bilərsiniz?**

- Təbii ki, ötən dərs ilinin uğurlu nəticələrinə təsir edən amillərdən danışanda təhsil sistemində qanunvericilik bazasının möhkəmləndirilməsi amilindən də bəhs etməliyik. İlk növbədə, cari ilin iyununda qəbul olunan "Təhsil haqqında" qanuna edilən dəyişiklikləri qeyd etmək istərdim. Təhsil sistemimizin növbəti illərdə uğurlu inkişafına təsir edəcək bu sənəd təhsilin bütün pillə və səviyyələrini əhatə edir. Qanunun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib və 2 yeni maddə əlavə olunub. "Təhsil haqqında" qanunda təhsil müəssisələrində psixoloji xidmətin təşkili, ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili, fənn olimpiadalarının qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu, pedaqoji fəaliyyətlə məşğul olma, dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması və digər məsələlərdə ciddi dəyişikliklər edilib. Dəyişikliyi zərurətə çevirən amil isə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası prosesində bir çox yeniliklərin tətbiqi ilə bağlıdır. Ən böyük dəyişikliklərdən biri 6 yaşı tamam olan uşaqların məktəbə qəbulu qaydalarında edilib ki, bu da valideynlər tərəfindən razılıqla qarşılanıb. Bu vaxta qədər 6 yaşı sentyabrın 15-dən sonra tamam olanlar xüsusi komissiyaların rəyi əsasında məktəbə qəbul olunurdular. Hazırkı dəyişikliyə əsasən bu məhdudiyyət aradan qaldırılıb. Digər mühüm dəyişikliklərdən biri beynəlxalq fənn, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunması ilə bağlıdır ki, bu da istedadlı gənclərin olimpiadalara olan marağını artıracaq. Bundan başqa, qanuna əsasən, dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlər sertifikatlaşdırılacaq, bu, müəllimlərin öz sahəsinə uyğun bilik və bacarıqlarının qiymətləndirilməsi, nəticələrə əsasən karyera inkişafını nəzərdə tutur. Məlumdur ki, iqtisadiyyatın müasir şaxələndirilməsi şəraitində peşə təhsili sisteminin yenidən qurulması, işəgötürənlərin tələblərinə cavab verən peşəkar mütəxəssis hazırlığı, təhsilin məzmununun yenilənməsi və nüfuzunun artırılması bu sahəyə diqqətin artmasına səbəb olub. Ötən tədris ilində ilk dəfə olaraq bu sahənin inkişafına böyük təkan verən "Peşə təhsili haqqında" qanunun qəbul olunması, 2018-ci il fevralın 27-də Mingəçevirdə Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə layihəsi olan "ASAN Peşə" təhsil mərkəzinin yaradılması mühüm yeniliklərdən oldu. 2018-2019-cu tədris ili üzrə "ASAN Peşə" layihəsi çərçivəsində dövlət peşə təhsili müəssisələrinə sənəd qəbulu zamanı 11017 nəfər qeydiyyatdan keçib. Artıq 9196 nəfər müsabiqəni müvəffəqiyyətlə keçərək peşə təhsili müəssisələrinə qəbul olunub. Qəbulun "ASAN Peşə" çərçivəsində keçirilməsi prosesin şəffaflığını artırıb, əhatə dairəsini genişləndirib. Qeyd edim ki, yeni qanunvericilik təşəbbüsləri ölkəmizdə təhsilin əlçatanlığının təmin edilməsinə, daha keyfiyyətli insan kapitalının formalaşdırılmasına, təhsilin məzmununun yaxşılaşdırılmasına, bütövlükdə isə təhsil sistemimizin inkişafına mühüm töhfələr verəcək.

**- Məhəbbət xanım, məlumdur ki, son illər ölkəmizdə təhsil infrastrukturu da əhəmiyyətli dərəcədə yenilənib. Hazırda bu istiqamətdə hansı işlər görülür?**

- Hər bir uğurlu təhsil sistemi modern təhsil infrastrukturuna əsaslanır. Bu mənada ölkəmizdə təhsil infrastrukturunun yaxşılaşdırılması üzrə mühüm tədbirlər görülüb. Ölkəmizdə təhsilin inkişafına yönəlmiş infrastruktur sosial layihələr ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Ötən il ölkədə 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir aparılıb. Yeni tədris ili ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Meysəri kənd tam orta məktəbinin yeni binasının və İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışlarında iştirak ediblər. Bundan əlavə, Bakı və onun qəsəbələrində bir neçə məktəb binası yenidənqurmadan və təmirdən sonra istifadəyə verilib. Respublikanın bir sıra rayonlarında yeni məktəb binaları inşa olunub. Məktəblər yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Qeyd edilməlidir ki, son illərdə reallaşdırılan infrastruktur layihələri çərçivəsində tikilən, əsaslı təmir edilən 3104 məktəbdən 2826-sı (91 faiz) regionların payına düşür. Prezident İlham Əliyevin 2017-2018-ci illərdə qəzalı vəziyyətdə olan məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi ilə bağlı tapşırığına uyğun olaraq ötən il respublikanın 40-dan çox bölgəsində qəzalı vəziyyətdə olan 106 təhsil müəssisəsi modul tipli məktəblə əvəz olunub. Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə əsaslı təmir-bərpa işləri aparılır. Görülən işlərin davamı olaraq bu il 41 rayonda 137 modul tipli məktəb istifadəyə veriləcək.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrası çərçivəsində Təhsil Nazirliyi regionlarda təhsilin inkişafı sahəsində bir sıra tədbirlər həyata keçirib. Nəticədə təhsilin inkişaf dinamikasında regionların göstəriciləri əhəmiyyətli dərəcədə artıb ki, bu da ötən tədris ilinin mühüm nəticələrindən hesab oluna bilər. Nazirlik tərəfindən ümumtəhsil məktəb şagirdlərinin təlim nailiyyətlərinə nəzarətin gücləndirilməsi sayəsində bölgələrdə ümumi təhsil göstəricilərində, xüsusilə də buraxılış imtahanları və ali məktəblərə qəbulun nəticələrində əvvəlki illərlə müqayisədə nəzərəçarpan irəliləyişlər müşahidə edilib.

Şübhəsiz ki, ölkə təhsili üçün ən əhəmiyyətli prioritet keyfiyyətli təhsil təminatının davamlılığına nail olmaqdır. Bu gün təhsil ocaqlarımızda yaradılan müsbət mənəvi-psixoloji mühit, təhlükəsiz iş şəraiti, yaradıcı fəaliyyət atmosferi, rəhbər işçilərin və müəllimlərin vəzifə funksiyalarına məsuliyyətli münasibəti, məktəb-valideyn əlaqələrinin pedaqoji əməkdaşlıq əsasında qurulması, şagirdlərə diqqət, qayğı, məhəbbətlə yanaşılması, ən başlıcası isə, hər bir uşağa onun gələcəkdə dövlətimiz, cəmiyyətimiz üçün gərəkli şəxsiyyət olacağı düşüncəsinin aşılanması keyfiyyətli təhsilin əsasını təşkil edir.

Qeyd edim ki, Prezident İlham Əliyev tərəfindən 5 il əvvəl təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ümumi təhsil sisteminin müasir dövrün tələb və çağırışlarına uyğun inkişafı ilə bağlı müəyyənləşdirilmiş hədəflərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi yeni dərs ilində də təhsilin yol xəritəsi kimi daim diqqətdə saxlanılacaq.

# Məlahət İbrahimqızı: Həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı konkret addımlar atmalıdırlar



**"ATƏT-in Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı konkret addımlar atmalıdırlar".** Bu fikri Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib.

M.İbrahimqızı bildirib ki, həmsədrlər işğalçı ilə işğala məruz qalan dövləti bərabər tutmamalıdırlar. Onun sözlərinə görə, işğalçı Ermənistan öz adı ilə çağırılmalıdır.

**"Həmsədrlər "balanslaşdırılmış" bəyanatlardan, regiona turist səfərlərindən daha çox əməli tədbirlər görməlidirlər. Onlar münaqişənin beynəlxalq hüquq çərçivəsində, xüsusilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həllinə çalışmalıdırlar. Əgər Ermənistan bu prosesdə ciddi təzyiqlərə, sanksiyalara məruz qalmasa, xoşluqla işğalçılıq siyasətinə son qoymayacaq. Ötən illərin təcrübəsi bunu deməyə əsas verir",** - deyə YAP Siyasi Şurasının üzvü vurğulayıb.

# Milli Məclisin deputatı: Ermənistanın işğalçılıq siyasəti və onun nəticələri ilə bağlı məsuliyyətdən yayınması mümkün olmadı



Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı söhbətdən sonra Dağlıq Qarabağ probleminin həlli ilə bağlı işğalçı Ermənistan tərəfindən aprel ayından bəri davam etdirilən sərt ritorikaya son qoyulmuş oldu. Bu, əslində Azərbaycanın həyata keçirdiyi güc tətbiq etmədən sülhə məcburetmə diplomatiyasının nəticəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. Milli Məclisin deputatı qeyd edib ki, Paşinyan tərəfindən danışıqların qondarma qurumla aparılması, danışıqların formatının dəyişdirilməsinin zəruriliyi, Ermənistanın danışıqlarda tərəf olmaması kimi iddialara son qoyuldu. Ermənistanın işğalçılıq siyasəti və onun nəticələri ilə bağlı məsuliyyətdən yayınması mümkün olmadı. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal edilib, azərbaycanlılara qarşı soyqırımı törədilib və bunun məsuliyyəti Ermənistanın üzərindədir. Hazırkı mərhələdə bütün bunlara baxmayaraq, Azərbaycanın problemi sülh yolu ilə həll etməyə sadiq qalması Ermənistan üçün bir şansdır və işğalçı ölkə bunu qiymətləndirməyi bacarmalıdır.

Hikmət Babaoğlu vurğulayıb ki, bu gün işğal faktının hələ də davam etdirilməsi regionun geostrateji bütövlüyünü pozmaqla onun əhəmiyyətini azaldır. **"Buna paralel olaraq, regionun iqtisadi və sosial-mədəni bütövlüyü də pozulub. Regional inteqrasiya iflic olub. Vəziyyətin bu cür davam etməsi isə Cənubi Qafqaz ölkələrinin hər üçünün milli maraqlarına ziddir və buna son qoyulmalıdır. Yaxşı olar ki, yaranmış hazırkı mülayim siyasi iqlimdən istifadə edərək Ermənistan işğal faktının aradan qaldırılması ilə bağlı konkret addımlar atsın. Bu, hamının xeyrinə olar",** - deyə Milli Məclisin deputatı diqqətə çatdırıb.

# Bəhruz Quliyev: Bir daha təsdiq edildi ki, Ermənistan münaqişə tərəfidir, danışıqlar da onunla davam etdiriləcək



Düşənbədə MDB Sammiti çərçivəsində Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla apardığı söhbətin ardınca qarşı tərəfin Dağlıq Qarabağ münaqişəsi ətrafında səsləndirdiyi aşırı bəyanatlara və kəskin ritorikalara son qoyulmuş oldu.

Bunu "Trend"ə "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən məsələyə münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, eyni zamanda, Ermənistan tərəfindən danışıqlar prosesinin formatının dəyişdirilməsi, yəni Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin də bu danışıqlara cəlb edilməsi iddiası aradan qaldırıldı: **"O cümlədən bu amil bir daha təsdiq etdi ki, Ermənistan münaqişə tərəfidir, gələcəkdə aparılacaq danışıqlar da onunla davam etdiriləcək. Məhz bu yolla normal danışıqlar prosedurunu qurmaq, nəticələr əldə etmək mümkündür".**

Ekspert digər bir mühüm məsələyə də toxunaraq, təmas xəttində və Ermənistanla sərhəddə insidentlərin qarşısının alınması üçün operativ əlaqə mexanizmlərinin yaradılması barədə qəbul edilən qərarın münaqişənin tənzimlənməsi istiqamətində rol alacağını deyib: **"Əlbəttə ki, bu anlaşma məhz Prezident İlham Əliyevin apardığı səlis diplomatik siyasətin uğurlu göstəricisidir və tərəflər arasında qəbul ediləcək növbəti qərarlar münaqişənin sülh yolu ilə tənzimlənməsinə öz töhfələrini verə bilər. Çünki görünən də budur ki, artıq Ermənistan tərəfi də danışıqların əvvəlki mövqeyinə qayıtmaq istəyində olduğunu göstərməkdədir".**

# Hesablama Palatasının əməkdaşı Vaşinqtonda konfransda iştirak edib

Hesablama Palatasının dövlət borcunun təhlili, maliyyə-kredit fəaliyyətinin və dövlət əmlakının idarə olunmasının auditi şöbəsinin baş məsləhətçisi Həsən Nəcəfzadə Vaşinqtonda Asiya İnkişaf Bankı və İnter-Amerika İnkişaf Bankı ilə birgə təşkil edilmiş Qlobal Dövlət Satınalmaları üzrə "Rəqəmsal Sərhədə Doğru" və IV illik Asiya və Sakit Okean regionunun "Dövlət Elektron Satınalmaları Şəbəkəsi" mövzularında təşkil edilmiş konfranslarda iştirak edib.

Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə 93 ölkədən 300 nəfərdən artıq satınalma üzrə mütəxəssis təmsil olunub.

"Rəqəmsal Sərhədə Doğru" adlı konfransda İnter-Amerika İnkişaf Bankının vitse-prezidenti Alexandre Meira da Rosa bu kimi görüşlərin təcrübə mübadiləsi baxımından yüksək əhəmiyyətliliyini və eyni zamanda, dövlət satınalmaları prosedurlarının elektron texnologiyaların tətbiqi ilə sadələşdirilməsi və operativliyin təmin olunmasının zəruriliyini bildirib.

Xüsusi olaraq qeyd edilib ki, rəqəmsal transformasiya bir çox sahələrə, o cümlədən dövlət satınalmaları sisteminə də müsbət təsir göstərməkdədir. Bir müddət əvvəl dövlət satınalmalarının inzibati funksiyadan daha strateji funksiyaya keçidi barədə, hazırda isə rəqəmsal inqilabın satınalmaların tamamilə məlumat əsaslı fəaliyyətə köçürülməsi potensialı üzərində müzakirələr gedir. Rəqəmsallaşma və yeni texnologiyaların istifadəsi satınalma prosesinin daha da effektiv həyata keçirilməsinə imkanlar yaradır.

Sonda "Dövlət Satınalmaları Sistemində Rəqəmsal İnqilab" adlı Deklarasiya imzalanıb.

IV illik Asiya və Sakit Okean regionunun "Dövlət Elektron Satınalmaları Şəbəkəsi" adlı konfrans isə Asiya İnkişaf Bankının satınalma, kredit portfeli və maliyyə idarəetmə departamentinin baş direktoru xanım Riza Jijia Tenqin giriş sözü ilə çıxışından sonra davam edib. İclasda çıxış edənlər sırasında Asiya İnkişaf Bankının, Gürcüstanın, Qazaxıstan, Qırğızıstanın, Taylandın, Hindistanın və digər ölkələrin dövlət satınalmaları üzrə mütəxəssisləri elektron dövlət satınalmaları sahəsində əldə etdikləri təcrübələr haqqında məruzələr ediblər.

Ətraflı müzakirələrdən sonra İngiltərə və Hindistan nümayəndələri dövlət və qeyri-dövlət təşkilatlarında elektron satınalma sisteminin qurulması üçün bir neçə proqram təminatlarının təqdimatını ediblər.

Sonda Asiya İnkişaf Bankı tərəfindən dərc olunan "Elektron Satınalmalar üzrə Təlimat" təqdim edilib və onun bankın saytında (www.adb.org) yerləşdirilməsi haqqında məlumat verilib.

# YAP Gənclər Birliyinin təşkilatçılığı ilə "Azərbaycan-Rusiya əlaqələrinin möhkəmləndirilməsində gənclərin rolu" mövzusunda konfrans keçirilib



Sentyabrın 29-da Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında partiyanın Gənclər Birliyinin təşkilatçılığı ilə "Azərbaycan-Rusiya əlaqələrinin möhkəmləndirilməsində gənclərin rolu" mövzusunda konfrans keçirilib. Konfransda ölkəmizdə səfərdə olan Rusiyanın "Vahid Rusiya" Partiyasının gənclər qolu olan "Gənclər Qvardiyası" (MGER) Ümumrusiya İctimai Təşkilatının nümayəndə heyətinin üzvləri də iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan YAP Gənclər Birliyinin sədr müavini Ramin Məmmədov Azərbaycanla Rusiya arasında yüksək əlaqələrin mövcud olduğunu bildirib. Onun sözlərinə görə, hər iki ölkənin gəncləri bu əlaqalərin inkişafına töhfə verirlər.

Konfransda çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov MGER Ümumrusiya İctimai Təşkilatının nümayəndələrinin ölkəmizə səfərini iki ölkə arasında yüksək münasibətlərin göstəricisi kimi dəyərləndirib. YAP Gənclər Birliyinin beynəlxalq əlaqələrindən danışan S.Orucov qeyd edib ki, təşkilat Rusiyanın "Vahid Rusiya" Partiyasının gənclər qolu olan "Gənclər Qvardiyası" ilə geniş əməkdaşlığa malikdir. Azərbaycanla Rusiya arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu deyən S.Orucov qarşılıqlı əlaqələrin bütün sahələri əhatə etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, əlaqələrin inkişafında hər iki dövlətin prezidentlərinin dostluq münasibətləri də xüsusi rol oynayır.



Yeni Azərbaycan Partiyası ilə "Vahid Rusiya" Partiyası arasında əlaqələrin yüksək səviyyədə olduğunu deyən YAP GB-nin sədri iki ölkənin hakim partiyalarının gəncləri arasında əməkdaşlığın genişlənməsinin əhəmiyyətini vurğulayıb. Onun fikrincə, "Gənclər Qvardiyası" təşkilatının nümayəndə heyətinin Azərbaycana səfəri bu önəmin göstəricisidir. S.Orucov qeyd edib ki, gənclərin qarşılıqlı əlaqələrinin genişlənməsi bütövlükdə iki ölkə arasında münasibətlərin güclənməsində də vacib rol oynayır.

Daha sonra konfransda MGER tərəfindən hazırlanmış "Qəhrəmanlıq zamanı deyil" sənədli filmi nümayiş olunub.

MGER-in Koordinasiya Şurasının üzvü, təşkilatın Tatarıstan regional şöbəsinin rəhbəri Dinar Bariyev tədbirdə çıxışı zamanı filmin əhəmiyyətindən danışarkən qeyd edib ki, bu filmdə gənc qəhrəmanlardan bəhs olunur. Belə ki, bu gənclərin etdikləri fədakarlıqlar özünüreklam məqsədi güdmür, əksinə, bir insanlıq nümunəsidir. Bu baxımdan, film maarifləndirici əhəmiyyətə malikdir.

Dinar Bariyev Azərbaycanla Rusiyanın strateji tərəfdaş olmaqla yanaşı, həm də dost ölkələr olduğunu diqqətə çatdırıb. Yeni Azərbaycan Partiyası ilə "Vahid Rusiya" Partiyasının əməkdaşlığının əhəmiyyətindən danışan D.Bariyev qeyd edib ki, hər iki partiyanın gəncləri arasında da sıx dostluq münasibətləri mövcuddur. O bildirib ki, nümayəndə heyətinin tərkibində təşkilatın müxtəlif regionlar üzrə strukturlarının rəhbər şəxsləri təmsil olunurlar. Bu da partiyaların gəncləri arasında dostluq münasibətinin göstəricisidir. D.Bariyev gənclər arasında əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını söyləyib. Çünki bu əlaqələrin inkişafı hər iki ölkənin maraqlarına uyğundur.

O həmçinin MGER-in fəaliyyəti haqqında konfrans iştirakçılarına geniş məlumat verib.

Konfransda digər çıxış edənlər də Azərbaycanla Rusiya arasında əlaqələrin inkişafında gənclərin rolunun əhəmiyyətini vurğulayıblar.

# Ailə kiçik dövlət, böyük sərvətdir

*Yeni Azərbaycan Partiyasının dəstəyi ilə ailə quran və ev sahibi olan Fikrətlə Aytac: Bu ev bizim xoşbəxtlik ocağımızdır*

Azərbaycan xalqının əsrlərdən gələn gözəl, dəyərli adət-ənənələri var. Yüz illərdir ki, bu ənənələr yaşayaraq bu günümüzə gəlib çatıb. Xalqımızın gözəl ənənələrindən biri də xeyirxahlıq etmək, imkansızlara, kimsəsizlərə yardım etmək, onlara arxa, dayaq olmaqdır. Sevindirici haldır ki, bu ənənə artıq müstəqil Azərbaycanda dövlət siyasətinə çevrilib. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan humanist siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Ulu öndər Heydər Əliyevin qurucusu olduğu və Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası (YAP) da bu ənənələrə sadiq qalaraq xeyriyyə tədbirləri həyata keçirir. Partiyanın təşkilatçılığı ilə bu il mayın 9-da Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən Təhsil Nazirliyinin 8 saylı sanatoriya tipli internat məktəbinin məzunları, valideyn himayəsindən məhrum olmuş gənclər - Fikrət Həsənovla Aytac Səfərova üçün toy mərasiminin keçirilməsi də məhz milli adət-ənənələrimizə, Heydər Əliyev ideyalarına sadiqliyin ifadəsi idi.





Qeyd edək ki, Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ərəfəsində təşkil olunan gənclərin toy şənliyi Bakıdakı məşhur "Xəmsə" şadlıq sarayında keçirilib və şənlikdə YAP-ın üzvləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, gənclər və incəsənət adamları iştirak ediblər. YAP tərəfindən bu gənclərə ev də hədiyyə edildi.

Artıq Fikrətlə Aytacın icdivacından bir neçə ay ötür. Təbii ki, ailə qurmaqla bu cütlük öz həyatlarının yeni mərhələsinə başlayıblar. Biz də "Yeni Azərbaycan" qəzeti olaraq, gənclərin Yeni Günəşli massivində yerləşən evlərində qonaq olub onların yeni həyatları ilə maraqlandıq.

İlk olaraq Fikrətlə Aytac özlərinin sevgi tarixçəsindən bəhs etdilər. Belə ki, hər iki gənc 6-7 yaşlarından Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən Təhsil Nazirliyinin 8 saylı sanatoriya tipli internat məktəbində böyüyüblər. Fikrət 6 yaşında olanda onu xalası buraya gətirib. Bir neçə il sonra isə Aytac da bu məktəbə gətirilib. Fikrət Aytacın qardaşı ilə eyni sinifdə oxuyub. Fikrət məktəbi bitirdikdən sonra da ona burada yaşaması üçün şərait yaradılıb. Bir neçə il əvvəl Fikrət Aytaca nişan üzüyü bağışlasa da, toy etməyə imkanı olmayıb. **"Mən evlənməyimizə kömək etmək üçün məktəbin direkorundan xahiş etdim. O da Yeni Azərbaycan Partiyasına müraciət etdi. Sağ olsunlar ki, arzumuzu gerçəyə çevirdilər. Yeni Azərbaycan Partiyasının bu xeyirxahlıq missiyası bizi bir-birimizə qovuşdurdu. Uşaq yaşlarından bu məktəbdə yaşamışdıq. Bura bizim evimiz olub. Və burada birbirimizi tanımışıq. Mən Aytacı bəyəndim, sevdim. Şükürlər olsun ki, ailə qurduq. Allah hər kəsdən razı olsun",** - deyə Fikrət bildirib.



***Fikrət Həsənov:*** *Bizə bu sevinci Yeni Azərbaycan Partiyası yaşatdı*

## XEYİRXAHLIQ, YARDIMSEVƏRLİK XALQIMIZIN ƏN GÖZƏL ƏNƏNƏLƏRİNDƏN BİRİDİR

O deyib ki, xeyirxahlıq, yardımsevərlik xalqımızın genindən gəlir. Çünki tarixən Azərbaycan xalqı mərd, xeyirxah xalq kimi dünyada tanınıb: **"Bu da çox gözəl, bütün dünyaya nümunə olacaq bir adət-ənənədir. Hazırda bu ənənə dövlətimizin siyasətində də əksini tapır. Bu gün Prezident İlham Əliyevin siyasətində imkansız ailələr, ahıllar, valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət qayğısı yüksək səviyyədədir. Eyni zamanda, respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti təqdirəlayiqdir. Fond tərəfindən internat məktəbləri, uşaq evləri və onların sakinləri daim diqqətdə saxlanır. Valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilir. Bu da Azərbaycanın sosial dövlət olduğunu göstərir. Bizim oxuduğumuz məktəb də Fond tərəfindən əsaslı təmir olunub. Həm də valideyn himayəsindən məhrum olan uşaqların təhsili, mənzil və işlə təminatı həmişə diqqət mərkəzindədir. Bizə olan kömək də bu siyasətin davamıdır".**

Fikrətin həyat yoldaşı Aytac da Yeni Azərbaycan Partiyasının bu xeyirxah addımını nəcib əməl kimi dəyərləndirib: **"Bu işdə zəhməti olan hər kəsə təşəkkür edirəm. Nə qədər təşəkkür etsək də, bu, azdır. Sadəcə, mehriban, nümunəvi ailə olmaqla bizə göstərilən qayğıya layiq olmağa çalışırıq. Hər bir ailə üçün ev əsas şərtlərdən biridir. Partiyamız çox sağ olsun ki, bizi evlə də təmin etdi. Bu ev bizim xoşbəxtlik ocağımızdır".**

Qeyd edək ki, cütlüyün toy mərasimində iştirak edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov Fikrətlə Aytaca xeyir-dua verib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. Əli Əhmədov evin açarlarını da toyda Fikrətə təqdim edib. **"Arzu edirik, bütün gənclərimiz evlənə bilsinlər, ailə qursunlar, ev-eşik sahibi olsunlar. Bir halda ki, toy olur, ailə qurulur, orada gərək ev də olsun. Və mən istəyirəm, bu gənc ailənin evinin açarını onlara təqdim edim. Artıq onların öz evləri də var. Bir daha təbrik edirəm. Qoy bu ev sizin xoşbəxtlik ocağınız olsun",** - deyə YAP Sədrinin müavini qeyd edib.



Gənclərə möhkəm ailə səadəti, xoşbəxtlik diləyən Əli Əhmədov inamını ifadə edib ki, bu qədər insanın xeyir-duası ilə qurulan ailə çox möhkəm olacaq: **"Bu toyun bir mənası ondan ibarətdir ki, iki gənc ailə qurur, bundan sonrakı ömürlərini birləşdirir. İkinci mənası isə odur ki, cəmiyyətimiz bir daha öz birliyini göstərir, insanlara kömək göstərmək istəyini ifadə edir. Bu da cəmiyyətimizi birləşdirən və möhkəmləndirən ən güclü amillərdən biridir".**

O qeyd edib ki, Ulu öndər Heydər Əliyevin qurucusu olduğu ölkədə heç kim tək, kimsəsiz deyil. Bu toy şənliyini cəmiyyətimizin birliyinin təzahürü adlandıran Baş nazirin müavini gənclərə nümunəvi ailələrdən olmağı arzulayıb.

## "HƏR ZAMAN NÜMUNƏVİ AİLƏ OLMAĞA ÇALIŞACAĞIQ"

Fikrətlə Aytac da bu diqqətə və tövsiyələrə görə minnətdardırlar. Onlar hər zaman nümunəvi ailə olmağa çalışacaqlarını deyiblər. Onlara hədiyyə edilən evin tam təmirli olduğunu deyən Fikrət mənzildə hər şeylə təmin olunduqlarını da söyləyib: **"Bizim üçün bu hədiyyə əvəzsizdir. Çünki hər bir ailənin ən böyük arzularından biri evə sahib olmaqdır. Bizə bu sevinci də Yeni Azərbaycan Partiyası yaşatdı. İndi isə hər bir azərbaycanlı ailəsi kimi öz həyatımızı yaşayırıq. Dost-tanışlar gəlib-gedir, hal-əhval tuturlar. Boş zamanımızda ailə olaraq şəhərə çıxıb istirahət edirik".**

Fikrətin dediyinə görə, sadəcə, toy etməklə hər şey bitməyib. YAP-ın üzvləri tez-tez onlarla əlaqə saxlayır, hal-əhval tuturlar. Eyni zamanda, Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən Təhsil Nazirliyinin 8 saylı sanatoriya tipli internat məktəbinin direktoru Pəri Paşayeva, demək olar ki, hər gün onlarla zəngləşir. Çünki Fikrətlə Aytac Pəri xanımı özlərinin mənəvi anası hesab edirlər.

Onu da qeyd edək ki, bu gənclər Yeni Azərbaycan Partiyasının üzvüdürlər, onlar partiyanın Xəzər rayon təşkilatında qeydiyyatdadırlar. Fikrətlə Aytac partiyanın sıralarına qoşulmağı özlərinin mənəvi borcu hesab etdiklərini deyirlər. **"Partiyanın qurucusu Ulu öndər Heydər Əliyevin ideyaları hər zaman yaşayır. Ulu öndərimizin əsasını qoyduğu humanizm siyasəti bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilir. YAP-ın fəaliyyətində də bu amil hər zaman öndədir. Bizə olan qayğı da bunun əyani göstəricisidir. Ona görə də biz bu partiyanın üzvü olmağı özümüzə mənəvi borc hesab edirik",** - deyə Fikrət qeyd edib.



***Aytac Səfərova:*** *Yeni Azərbaycan Partiyası həmişə ahıl insanlara, kimsəsizlərə, valideyn himayəsindən məhrum olan uşaqlara, aztəminatlı ailələrə qayğı ilə yanaşır, onları diqqətdən kənarda qoymur*

## "YAP-IN ÜZVÜ OLMAĞIMIZLA FƏXR EDİRİK"

Aytac isə partiyanın hər zaman gənclərə qayğı ilə yanaşdığını söyləyib: **"Biz bilirik ki, Yeni Azərbaycan Partiyası gənclərə yüksək diqqət göstərir. Partiya gənclərin bilik və bacarıqlarını ifadə etmək üçün geniş meydan yaradıb. Yəni özünə güvənən gənclərə YAP həmişə bütün imkanları yaradır. Bundan başqa, partiya həmişə xeyirxah tədbirlər həyata keçirir. Ahıl insanlara, kimsəsizlərə, valideyn himayəsindən məhrum olan uşaqlara, aztəminatlı ailələrə partiyamız həmişə qayğı ilə yanaşır, onları diqqətdən kənarda qoymur. Ona görə də biz də bu partiyanın üzvü olmaqla fəxr edirik. Bizə bu dəstəyi verdiyi üçün partiyanın rəhbərliyinə sonsuz minnətdarıq".**

Beləliklə, bu cütlük öz həyatlarından çox razıdır. Fikrətlə Aytac bir-birlərinə qovuşduqları üçün özlərini xoşbəxt hesab edirlər. Hazırda Fikrət 1 saylı şəhər kliniki xəstəxanasında texnik işləyir. Ən əsası isə odur ki, partiyamızın qayğısı, möhkəm sevgi Fikrətlə Aytacı bir-birinə daha da bağlayır. Necə deyərlər, ailə kiçik dövlət, böyük sərvətdir. "Yeni Azərbaycan" qəzeti olaraq bu cütlüyə daim xoşbəxtlik, ailə səadəti, evlərindən körpə səsinin eşidilməsini arzulayırıq.

**Nardar BAYRAMLI**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında yol infrastrukturunun yenilənməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər uğurla icra olunur

*Bölgələrdə avtomobil yollarının yenidən qurulması və tikintisi istiqamətində görülən işlər davamlı xarakter daşıyır*






(əvvəli ötən sayımızda)

Avtomobil yolunun 2011-2018-ci illərdə yeni istiqamət üzrə tikilən ümumi uzunluğu 173 kilometr olan Yenikənd-Astara hissəsində layihə üzrə bir sıra işlər həyata keçirilib. Layihənin Şorsulu-Cəlilabad hissəsində 12,5 kilometrlik yol bataqlıq-göl ərazilərdən keçdiyi üçün burada torpaq xüsusi texnologiya ilə bərkidilib və yol yatağının tikintisi zamanı 1,2 milyon ton qaya-daş dolğusundan istifadə olunub. Ümumilikdə, magistral yol boyu 24 körpü, 66 yeraltı keçid, 25 yolötürücü və yol qovşağı, 4 tunel, 51 kilometr çiyinlərdə suaxıdıcı beton küvetlər tikilib, 5 istirahət parkı salınıb, 166 kilometr ayırıcı zolaqda dəmir-beton təhlükəsizlik və 140 kilometr çiyinlərdə metal mühafizə çəpərləri, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb və yol-cizgi xətləri çəkilib. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun digər avtomobil yolları və maneələrlə kəsişməsində müxtəlif səviyyəli yol qovşaqlarının tikilməsi, birləşən və ayrılan yolların sayının azaldılması yolda təhlükəsizliyin təmin edilməsinə maksimum şərait yaradıb. Magistral yol Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edir və yolun tikintisi bu bölgədə turizmin, kənd təsərrüfatının inkişafına və beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərəcək. Prezident İlham Əliyev Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Qeyd etmək lazımdır ki, ölkəmizdə yol infrastrukturunun təkmilləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər davamlı xarakter daşıyır. Yeri gəlmişkən, uzunluğu 55 kilometr olan Lənkəran-Lerik avtomobil yolu isə 2 hərəkət zolaqlı olmaqla III texniki dərəcəyə uyğun yenidən qurulur. Hər bir hərəkət zolağının eni 3,5 metr, çiyinlərin eni isə 2,5 metr olmaqla yolun ümumi eni 12 metr təşkil edir. Yenidənqurma işləri çərçivəsində köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınır, zəruri olan yerlərdə yolun deformasiyaya uğramış hissələri qazılaraq çıxarılır, əvəzinə yol yatağının karxana çınqılı ilə tikintisi işləri görülür. Bundan başqa, yol yatağının profilə salınması və normativ eninin alınması üçün xüsusi qrunt daşınaraq yayılır və kipləşdirilir. Bunun ardınca yol əsasının layihədə nəzərdə tutulmuş qalınlıqda qum-çınqıl və optimal-qırmadaş qarışığı ilə tikintisi işləri aparılır. Lənkəran-Lerik avtomobil yolunun bir neçə nöqtəsində sürüşmə əraziləri mövcud olduğu üçün burada yol yatağının əlavə bərkidilməsi işləri görüləcək. Bundan başqa, yolun müxtəlif nöqtələrində istinad divarının dəmir-betonla tikilməsi və izolyasiyası, drenaj xətlərin çəkilməsi, mövcud suötürücü boruların istismara yaramadığı üçün yenisi ilə əvəz edilməsi və zəruri yerlərdə yenilərinin quraşdırılması, başlıqlarının dəmir-betonla təmiri və izolyasiyası da nəzərdə tutulub. İnşaat işləri mövcud tikinti norma və qaydalarına uyğun şəkildə aparılır. Yenidənqurma işlərinin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yolboyu zəruri olan yerlərdə yol nişanı və məlumatverici lövhə quraşdırılacaq, mövcud avtomobil körpülərinin məhəccərləri yeniləri ilə əvəz olunacaq, yol-cizgi və yolgöstərici xətlər çəkiləcək. Lənkəran-Lerik avtomobil yolu rayonlar arasında iqtisadi əlaqələrin, həmçinin turizmin və regionların sosial-iqtisadi inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir.

Sadalananlarla yanaşı, Qəbələdə də 8 yaşayış məntəqəsinin yolunun yenidən qurulması yekunlaşır. Qəbələ rayonunda Nic-Mıxılqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx yaşayış məntəqələrini əhatə edən və uzunluğu 18 kilometr olan avtomobil yolunun yenidən qurulması işləri yekunlaşmaq üzrədir. Layihəyə əsasən, sözügedən yol V texniki dərəcədən IV texniki dərəcəyə uyğun yenidən qurulur. Yenidənqurma işləri çərçivəsində süni qurğuların inşası və əsaslı şəkildə bərpası aparılıb. Belə ki, yolboyu mövcud avtomobil körpüləri və körpü məhəccərləri təmir edilib, yolun altından suların ötürülməsi üçün mövcud olan suötürücü borular bərpa olunub və müxtəlif diametrli 612 poqonmetr uzunluğunda metal, 72 poqonmetr dəmir-beton suötürücü boruların, həmçinin 42 poqonmetr uzunluğunda su keçidinin inşası işləri görülüb. Bütün işlər tikinti norma və standartlarına uyğun olaraq, tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə aparılır. Əraziyə cəlb olunmuş lazımi sayda qüvvənin köməkliyi ilə qısa müddətə tikinti işlərinin yekunlaşdırılması və yol boyu zəruri olan yerlərdə 98 ədəd yol nişanı və məlumatverici lövhə, 36 ədəd kilometr göstəricisi və 720 ədəd siqnal dirəyi quraşdırıldıqdan, 69 kilometr uzunluğunda yol-cizgı və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkildikdən sonra yol tam müasir şəkildə yaxın vaxtlarda vətəndaşların istifadəsinə veriləcək. Nic-Mıxılqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolu torpaq və çınqıl örtüklü olduğu üçün gediş-gəlişdə yaşanan çətinliklər yolun yenidən qurulması ilə geridə qalacaq, ən əsası, respublika əhəmiyyətli Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yoluna çıxış əldə olunmaqla 8 yaşayış məntəqəsinin hər birinə müasir infrastruktur, rahatlıq və abadlıq gələcək.

Yol infrastrukturunun yenidən qurulması istiqamətində aparılan işlər çərçivəsində Şamaxı rayonunun Çuxuryurd-Sis-Qaleybuğurd-Keçmədin-Qaladərəsi kəndlərini birləşdirən avtomobil yolunun yenidən qurulması da yekunlaşmaq üzrədir. 16 kilometrlik yol IV texniki dərəcəyə uyğun 6 metr hərəkət hissə və 2 metr çiyinlər də daxil 10 metr enində tikilir. Bunun üçün ərazidə 190 min kubmetr həcmdə torpaq işləri görülüb, yararlı çınqıl materialı tökülərək kipləşdirilib və yeni yol yatağı inşa olunub. Texnoloji ardıcıllığa uyğun olaraq yol yatağı hazır olandan sonra çınqıl-qum və qırmadaş-qum qarışıqlarından istifadə olunmaqla normativ qalınlıqda əsasın tikintisi aparılıb. Daha sonra 2 laydan ibarət asfalt-beton örtüyünün döşənməsi işlərinə başlanılıb. Bu zaman müvafiq olaraq iri və xırda dənəli asfalt-beton qarışığından istifadə edilməklə 96 min kvadratmetr sahə asfaltlanır. Layihəyə uyğun tikinti işləri bitəndən sonra hərəkətin normal təşkili üçün 96 ədəd müxtəlif yol nişanı, həmçinin 640 ədəd siqnal dirəyi quraşdırılacaq, 48 kilometr uzunluğunda xətlənmə işləri aparılacaq. Çuxuryurd-Sis-Qaleybuğurd-Keçmədin-Qaladərəsi avtomobil yolunun yenidən qurulması ilə 4 yaşayış məntəqəsi arasında nəqliyyat əlaqəsi yaxşılaşacaq, kənd əhalisinin rayon mərkəzinə və qonşu rayonlara rahat çıxış əldə etməklə yetişdirdikləri məhsulları tez bir zamanda bazarlara çıxarmaqlarına şərait yaradılacaq.

Yardımlı rayonunda cari ildə yenidən qurulan və uzunluğu 22 kilometr olan yerli əhəmiyyətli Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunda da işlər sürətlə davam etdirilir. 22 kilometr uzunluğa və 3-6 metrədək enə malik avtomobil yolunun təqribən 13 kilometri deformasiyaya uğramış çınqıl örtük olduğu üçün həmin hissədə 20 min kubmetr həcmdə yol yatağı qazılaraq çıxarılıb, IV texniki dərəcəyə uyğun 10 metr enində yeni yol yatağının inşasına başlanılıb. Tikinti norma və qaydalarına uyğun olaraq yeni yolun inşası işləri aparılıb, yol profilə salınıb, bitki qatı təmizlənib, yolun normativ eninin alınması üçün torpaq yatağının genişləndirilməsi işləri görülüb. Bundan başqa, yolun genişləndirilməsi üçün bəzi hissələrdə dağ yamacları mexanizmlə kəsilərək daşınıb. Daha sonra xüsusi qruntla yeni yol yatağı inşa edilib. Tikinti işləri çərçivəsində mövcud suötürücü borular istismara yaramadığı üçün yenisi ilə əvəz edilməsi və zəruri yerlərdə yenilərinin quraşdırılması, başlıqlarının dəmir-betonla təmiri və izolyasiya işləri aparılıb. Bu çərçivədə yolboyu 364 poqonmetr uzunluğunda 500 və 1000 millimetr diametrli suötürücü dəmir-beton boru quraşdırılıb, 14 poqonmetr uzunluğunda dördbucaqlı su keçidi inşa edilib. Layihəyə uyğun olaraq Viləş çayı üzərində isə 24 metr uzunluğunda dəmir konstruksiyalı avtomobil körpüsünün inşası işlərinə başlanılıb. Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun bir neçə nöqtəsində sürüşmə əraziləri mövcud olduğu üçün burada yuyulmuş torpaq yatağının bərpası və əlavə bərkidilməsi işləri görülür. Tikinti işlərinin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yollar boyu 90 ədəd yol nişanı, 22 ədəd kilometr göstəricisi və 880 ədəd siqnal dirəkləri quraşdırılacaq, 66 kilometr uzunluğunda yol-cizgi və yolgöstərici xətlər çəkiləcək. Yenidənqurma işləri mövcud tikinti norma və standartlarına uyğun texnoloji ardıcıllıqla və yüksək keyfiyyətlə aparılır. Tərtib olunmuş qrafikə uyğun işlərin başa çatdırılması üçün ərazidə lazımi sayda canlı qüvvə və texnika çalışır. Qeyd edək ki, Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun yenidən qurulması ilə gediş-gəliş rahatlaşacaq, yük və sərnişin daşınması isə asanlaşacaq.

Bütövlükdə, Azərbaycanın regionlarında yol infrastrukturunun yenilənməsi - respublika əhəmiyyətli yolların yenidən qurulması ilə bağlı məqsədyönlü tədbirlər uğurla icra olunur. Ümumiyyətlə, yol infrastrukturu layihələrinin icrası, öz növbəsində, kənd təsərrüfatı, turizm və sənaye kimi sahələrin inkişafı, başqa sözlə, bəhs olunan istiqamətlərdə müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi və müsbət göstəricilərin əldə olunması baxımından da mühüm əhəmiyyətə malikdir. Çünki yük və sərnişin daşınmasının asanlaşmasına xidmət edən bu tədbirlər, eyni zamanda, rahat və təhlükəsiz hərəkəti təmin edir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Ölsəm daha yaxşıdır: Ermənistanda qocaların ifrat ağır sosial vəziyyəti

*"The Guardian" Ermənistandakı aclıq və səfalət barədə yazır*


'It's better to die': the struggle to survive poverty in Armenia

Abandoned and isolated, thousands of elderly people in the former Soviet republic suffer a life of great hardship. Photojournalist Nick Danziger documents their plight as part of a Red Cross project, featured in BBC Radio 4's The Art of Now: Nick Danziger's Shutter Stories, on 1 October

Political upheaval, poverty and an exodus of young people to Russia to find work have taken their toll on the former Soviet Republic of Armenia, and in particular on its elderly people. Thousands of over 75s struggle to survive, coping in temperatures of -30C in winter and unable to afford medicine or sufficient food on their meagre pensions.

In early 2017 I was commissioned by the Swiss, Monaco and Armenian Red Cross societies to bring awareness of the plight of the elderly in Armenia and to focus on a pilot project which was being put in place to try and help them.

I was no stranger to Armenia having travelled there several times on assignments to cities and rural areas in the north of the country. Yet I had only an inkling of the hardships faced by older people through Hasmik, an elderly woman, whom I always found huddled in her barrack-like single room in all her clothes to keep the cold from her bones. Her room had no running water, a toilet or heating. Her pitiful pension paid for the electricity to heat a clothes iron, which she used to keep her bed warm by placing it between the bedclothes. She couldn't afford firewood for the stove or even enough food - she purchased day-old, discounted bread from the local bakery.

As I discovered, it's a problem on a massive scale. In the city of Vanadzor, for





Böyük Britaniyanın "The Guardian" qəzetində Ermənistandakı aclıq və səfalətlə bağlı Nik Denziger Din adlı fotomüxbirin "Ölsəm daha yaxşıdır: Ermənistanda qocaların ifrat ağır sosial vəziyyəti" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə qeyd edilir ki, Ermənistanda baş verən siyasi çevriliş, geniş yayılmış yoxsulluq və səfalət, eləcə də gənclərin iş tapmaq məqsədilə Rusiyaya böyük axını ölkədə, xüsusilə də yaşlı insanların acınacaqlı vəziyyətə düşməsinə gətirib çıxarıb. Yaşı 75-dən yuxarı olan minlərlə insan qışda mənfi 30 dərəcə temperatur şəraitində həyat mübarizəsi aparır və verilən çox cüzi təqaüd isə onların yetərincə qidalanmaları və ya dərman əldə etmələrinə kifayət etmir.

Məqalə müəllifi Nik Denziger Din 2017-ci ilin əvvəlində onun İsveçrə, Monako və Ermənistanın Qırmızı Xaç və Qızıl Aypara cəmiyyətləri tərəfindən Ermənistanda yaşlıların vəziyyətini araşdırmaq və onlara kömək etmək üçün pilot layihəyə dəstək vermək məqsədilə bu ölkəyə ezam olunduğunu bildirir.

Nik Denziger Din yazır ki, bu, onun Ermənistanın şəhər və kəndlərinə birinci səfəri olmasa da, Ermənistanın Vanadzor şəhərindəki ifrat yoxsulluqla bağlı çəkiliş edərkən Hasmik adlı bir qadının keşməkeşli həyatını əks etdirib. Bu qoca qadının soyuqdan qorunmaq üçün evdə olan bütün paltarlara bürünməsini, aldığı çox aşağı təqaüdə isə gün ərzində sobanı qızdırmaq üçün odun ala bilməməsi, həmçinin yerli çörəkçidən belə gün ərzində güzəştli çörək ala bilməməsinin şahidi olub. Müəllif qadının susuz, işıqsız və qazsız bir evdə həyat mübarizəsi apardığını qeyd edir.

Müəllif vurğulayır ki, Ermənistanda olan bu sosial vəziyyət kütləvi xarakter daşıyır. Məsələn, 68 min əhalisi olan Vanadzor şəhərində 20 mindən çox yaşlı insan yaşayır. Onların bir çoxu köməksiz həyat sürür. Çox aşağı təqaüd ilə burada, hətta ərzaq və istilik kimi əsas ehtiyacları ödəmək üçün pul tapmaq əsl mübarizəyə çevrilib. **"2017-ci ildə burada çəkiliş etdikdə düşünürdüm ki, aclıq və səfalət içərisində yaşayan insanların acınacaqlı taleyini təsvir etdiyim fotoşəkillərlə, bu sosial vəziyyətlərini işıqlandırmaqla onların bu vəziyyətinin üzə çıxacağına kömək etmiş olacağam"**, - deyə N.Denziger yazır.

Bavakan Avestiyan adlı 80 yaşlı qoca qadın həyat yoldaşı ilə birlikdə Ermənistanın Gümrü şəhərinin mərkəzindəki birotaqlı evdə yaşayır. Bizim səfərimizdən üç il əvvəl avtomobil qəzasında ayağı qırılan qoca qadın o vaxtdan bəri yataq xəstəsidir və bütün gününü evdə keçirir. İndi o, həm də Parkinson xəstəliyindən əziyyət çəkir. **"Mən zəngin bir qadın idim, hər kəsə əl tuturdum. İndi isə bu vəziyyətdəyəm. Ölsəm daha yaxşıdır"**, - deyə o ağlayır. O, ömrü boyu toxuculuq fabrikində işləyib və hazırda ayda 35 min dram (55 funt sterlinq) təqaüd alır. **"Qışda bu təqaüdün, demək olar ki, hamısı istilik ehtiyaclarını ödəməyə sərf olunur. Mənim əsas problemim maliyyə ilə bağlıdır"**, - deyə qoca qadın bildirir.

# Uşaqlar üçün növbəti ekoloji laboratoriya təlimi ağaclar və fəsillər mövzusuna həsr olunub




Sentyabrın 29-da IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatının birgə həyata keçirdiyi "Uşaqlar üçün ekoloji laboratoriya" layihəsi çərçivəsində növbəti təlim keçirilib.

İctimai Birlikdən AZƏRTAC-a bildiriblər ki, uşaqların ətraf mühit və canlı aləm barədə biliklərinin artırılması məqsədini daşıyan laboratoriyanın sentyabr təlimi ağaclar və fəsillər mövzusuna həsr olunub. Təlim zamanı uşaqlara ilin fəsilləri və xüsusiyyətləri barədə geniş məlumat verilib. Həmçinin uşaqlar ağacların ilin fəsillərinə uyğun dəyişməsi və inkişafı prosesi ilə tanış olublar.

Təlimin gedişində iştirakçılar bir sıra laboratoriya sınaqlarının keçirilməsində iştirak edib, o cümlədən müxtəlif ağac yarpaqlarından kiçik "sənət əsərləri" düzəldiblər. Daha sonra uşaqları yaşıllıqların qorunmasına təşviq etmək məqsədilə onlara IDEA İctimai Birliyinin ağacların əkilmə qaydalarından bəhs edən bukletləri paylanılıb. Sonda "kiçik ekoloqlar"la birgə ağaclar əkilib və bitkilərə qulluq göstərilib.

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatının birgə əməkdaşlığı ilə keçirilən sentyabr təlimi uşaqlara maraqlı və əyləncəli gün bəxş etməklə yanaşı, həm də onlara ağacların planetimiz üçün çox mühüm əhəmiyyətə malik olduğunu dərk etmələri baxımından mühüm töhfə verib.

IDEA İctimai Birliyinin Bakı və Gəncə şəhərlərində yerləşən Resurs Mərkəzlərində hər ay təşkil olunan "Uşaqlar üçün ekoloji laboratoriya"da iştirakla bağlı IDEA ilə (Bakı şəhəri üçün: 012 497-63-16; Gəncə şəhəri üçün: 022 264-01-48 ) əlaqə saxlamaq xahiş olunur.

# Göyçayda "Bakcell"in yeni rəsmi diler mağazası açılıb

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi olan Bakcell şirkəti, təklif etdiyi yüksək keyfiyyətli xidmət və məhsullarını müştərilərə daha da yaxın etmək üçün ölkənin bütün regionları üzrə öz satış və xidmət mərkəzləri şəbəkəsini genişləndirməyə davam edir. Bu fəaliyyətin davamı olaraq Göyçayın mərkəzində, Heydər Əliyev küçəsində "Bakcell"in yeni rəsmi diler mağazası istifadəyə verilib.



Tam yeni konsepsiya əsasında qurulmuş müasir satış mərkəzində şirkətin məhsul və xidmətərinin tam çeşidi ilə yanaşı ən son mobil cihazlar və aksesuarlar təklif edilir. Göyçay sakinləri yeni diler mağazasında "Bakcell"in bütün məhsul və xidmətləri barədə məlumat ala, mobil nömrə və istənilən cihazı əldə edə bilərlər.

"Bakcell özünün ən innovativ məhsul və xidmətlərini Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərinə təqdim etmək üçün əlindən gələni edir. Bu bölgələr sırasında Göyçay da xüsusi yerə malikdir. Bakcell şirkətinin 4G xidməti artıq bütün Bakı və Abşeron ərazisini əhatə edir. Eyni zamanda biz ölkənin 30-dan çox rayon və şəhər mərkəzində 4G şəbəkəsi qurmuşuq. Onlardan biri Göyçay rayonudur. Hazırda rayon mərkəzində bizim 4G xidmətimiz var və bu xidmətlərin əhatə dairəsini genişləndirməyə davam edirik. İnanırıq ki, yeni diler mağazamızın açılışı Göyçay sakinləri üçün faydalı olacaq" deyə Bakcell şirkətinin baş satış direktoru Zaur Bayramov bildirib.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, yeni diler mağazasının açılışı ilə bağlı həmin dükandan istənilən mobil telefon alan müştəriyə əlavə 1 ədəd digər model mobil telefon HƏDİYYƏ veriləcək. Müştərilər bu unikal fürsətdən bir ay ərzində yararlana biləcəklər.

Bakcell şirkəti özünün yüksək keyfiyyətli xidmətlərini və ölkədə ən yüksək sürətli mobil şəbəkəni Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə təqdim etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirir.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Şirkət 2018-ci ilin I və II rübü üzrə nüfuzlu "Ən sürətli mobil şəbəkə üzrə Speedtest mükafatı"nın qalibi olub. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən isə Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj:** **6074**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU